# QARABAĞ AZƏRBAYCANDIR!

## YAP Mərkəzi Aparatı Türkiyədə zərər çəkənlərə humanitar yardım göstərib

3

# Səs

№ 025 (6708) 10 fevral 2023-cü il. Qiyməti 60 qəpik

## Azərbaycan-Türkiyə qardaşlığının və həmrəyliyinin əsl nümunəsi



2

İLHAM ƏLİYEV: “Bütün Azərbaycan xalqı bu gün qardaş türk xalqının yanındadır”

# İranın Ermənistan vasitəsi ilə Azərbaycana hücum planı nə qədər realdır?



11

### Mehriban Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondunun göndərdiyi humanitar yardım Türkiyədə zəlzələ bölgəsinə çatdırılıb



4

### Zəlzələnin ən duyğulu və həssas anlarından...



5

### Anti-Rusiya sanksiyaları fonunda AZƏRBAYCAN ÜÇÜN NİKBİN PROQNOZLAR




4

## DİQQƏT: Qripdən necə qorunmalıyıq?



16

“Mövsümlə əlaqədar qripin ən çox yayılma dövrü elə qış aylarına təsadüf edir. İsti, qapalı və kollektiv mühit yoluxuculuğu daha da kəskinləşdirir”. Bu sözləri SİA-ya açıqlamasında mütəxəssis pediatr Yüksel Hüseynli deyib...

## Dəli yığınağı



11

# Azərbaycan-Türkiyə qardaşlığının və həmrəyliyinin əsl nümunəsi

## İLHAM ƏLİYEV: "Bütün Azərbaycan xalqı bu gün qardaş türk xalqının yanındadır"



Qardaş Türkiyə fevralın 6-da son 100 ilin fəlakətin ağır fəsadları ilə üz-üzə qalıb. Mərkəzi Kahramanmaraş olmaqla, 10 vilayətdə baş verən zəlzələlər nəticəsində minlərlə insan həyatını itirib, on minlərlə insan yaralanıb və dağıntılar altında qalıb. Onların taleləri hələ də məlum deyil. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyədə baş verən dəhşətli zəlzələ ilə əlaqədar fevralın 8-də Türkiyə Respublikasının ölkəmizdəki səfirliyində olması, başsağlığı verməsi əsl qardaşlıq nümunəsidir. Dövlət başçımızın da söylədiyi kimi, Azərbaycan hər zaman olduğu kimi, ilk dəqiqələrdən qardaş Türkiyənin yanında idi və öz dəstəyimizi, öz həmrəyliyimizi həmişə olduğu kimi nümayiş etdirdik: "Bilirsiniz ki, Azərbaycan hər zaman olduğu kimi, ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında idi və öz dəstəyimizi, öz həmrəyliyimizi, həmişə olduğu kimi, nümayiş etdirmişik. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik. Hər zaman Türkiyə də bizim yanımızdadır, yaxşı günlərdə, çətin günlərdə".

### NÖVBƏTİ DƏFƏ İKİ QARDAŞ ÖLKƏNİN LİDERLƏRİ HƏMRƏYLİYİNİ, "BİR MİLLƏT, İKİ DÖVLƏT" OLDUĞUNU NÜMAYİŞ ETDİRDİ

Türkiyədə baş verən dəhşətli zəlzələ nəticəsində çoxlu sayda insan tələfatının olması ölkəmizdə də böyük hüznlə qarşılandı. Qardaş ölkədən gələn acı xəbər Azərbaycan xalqını və dövlətini dərin kədərə boğdu. Azərbaycan Prezidenti İlham Əliyev fevralın 6-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək, Türkiyədə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı xəbərin Azərbaycanı çox sarsıtdığını bildirdi. Prezident İlham Əliyev Türkiyə xalqına şəxsən öz adından və xalqımız adından başsağlığı çatdırdı, yaralananların tezliklə şəfa tapmasını dilədiyini bildirdi. Azərbaycan Prezidenti onu da vurğuladı ki, Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır. Bu bir daha iki qardaş ölkənin liderlərinin həmrəyliyinin, "bir millət, iki dövlət" olduğunun nümayişi idi: "Mən əziz qardaşım, cənab Prezidentə telefonla başsağlığı vermək üçün zəng edəndə dedim ki, bütün varlığımızla biz Sizinlə bir yerdəyik və bilirsiniz ki, durmadan heyətlər göndəririk. Eyni zamanda, həkimlər, xilasedicilər, könüllülər göndərilir və göndəriləcəkdir. Çox böyük bəladır, böyük faciədir. Günahsız insanlar həlak olublar, yaralanıblar. Bilirsiniz ki, Azərbaycan hər zaman olduğu kimi, ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında idi və öz dəstəyimizi, öz həmrəyliyimizi, həmişə olduğu kimi, nümayiş etdirmişik. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik. Hər zaman Türkiyə də bizim yanımızdadır, yaxşı günlərdə, çətin günlərdə". Həmçinin, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva da sosial mediada paylaşım edərək Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələnin nəticələri barədə xəbərləri dərin kədər hissi ilə qarşıladığını bildirdi. Faciə zamanı həlak olanlara rəhmət diləyən, onların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verən, yaralananların və xəsarət alanların tezliklə şəfa tapmasını arzulayan Mehriban xanım Əliyeva "Türkiyə xalqının kədəri bizim kədərimizdir. Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbir diləyirəm!", - deyə qardaş Türkiyəyə dəstəyini ifadə etdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın xanımı Əminə Ərdoğan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya zəlzələdəki çoxsaylı insan tələfatı ilə bağlı başsağlığına görə təşəkkür etdi.

### BU DƏHŞƏTLİ ZƏLZƏLƏ BİZİ ÇOX SARSITDI, HƏR BİRİMİZƏ BÖYÜK MƏNƏVİ ƏZAB VERDİ

Fevral ayının 6-sı Türkiyə son 100 ilin ən böyük fəlakəti ilə qarşı-qarşıya durdu. Və baş verən zəlzələ Türkiyə xalqı kimi, bütün Azərbaycan xalqını da sarsıtdı, gecəmiz, gündüzümüz olmadı. Hər zaman sarsılmaz qardaşlıq və həmrəylik nümayiş etdirən xalqımız bu dəfə də Türkiyə xalqının dərdinə, acısına şərik oldu. Türkiyənin zəlzələ ilə əlaqədar dördüncü dərəcəli həyəcan elanından sonra beynəlxalq müstəvidə yardım təklifləri gəlməyə başladı. Təbii ki, yenə ilk köməyə gedən dost ölkə Azərbaycan oldu. Prezident İlham Əliyevin tapşırığına əsasən, Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması. Dövlət başçısı onu da bildirib ki, əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik: "Hər zaman Türkiyə də bizim yanımızdadır, yaxşı günlərdə, çətin günlərdə".

"Bilirəm ki, bizim dövlət qurumlarının nümayəndələri də öz təşkilatları çərçivəsində humanitar yardımın təşkilində fəaldırlar və bunu biz ancaq alqışlaya bilərik. Yəni, bütün Azərbaycan xalqı bu gün qardaş türk xalqının yanındadır",-deyən Prezident İlham Əliyev bir daha onu da söyləyib ki, bütün Azərbaycan xalqı bu gün qardaş türk xalqının yanındadır: "Mənim göstərişimlə bütün yardım məsələləri bir mərkəzdən idarə olunacaq, Prezident Administrasiyasının rəhbərinə göstəriş verildi. O cümlədən bizim xəstəxanalarda yaralı qardaş-bacılarımızın müalicəsi üçün bütün şərait var. Həm Bakıda, digər şəhərlərdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında artıq çarpayılar ayrılıb və əgər ehtiyac olarsa, biz xəstələri gətirməyə də hazırıq".

### BİZİM XƏSTƏXANALARDA YARALI QARDAŞ-BACILARIMIZIN MÜALİCƏSİ ÜÇÜN BÜTÜN ŞƏRAİT VAR

"Bilirəm ki, bizim dövlət qurumlarının nümayəndələri də öz təşkilatları çərçivəsində humanitar yardımın təşkilində fəaldırlar və bunu biz ancaq alqışlaya bilərik. Yəni, bütün Azərbaycan xalqı bu gün qardaş türk xalqının yanındadır",- deyən dövlətimizin başçısı bildirib ki, yardımla bağlı Prezident Administrasiyasının rəhbərinə göstəriş verilib: "Mənim göstərişimlə bütün yardım məsələləri bir mərkəzdən idarə olunacaq, Prezident Administrasiyasının rəhbərinə göstəriş verildi. O cümlədən bizim xəstəxanalarda yaralı qardaş-bacılarımızın müalicəsi üçün bütün şərait var. Həm Bakıda, digər şəhərlərdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında artıq çarpayılar ayrılıb və əgər ehtiyac olarsa, biz xəstələri gətirməyə də hazırıq". Dövlət başçısı bildirdi ki, Azərbaycan xalqı qardaşlarına dəstək olmaq üçün kimin əlində nə var onu gətirir: "Bilirsiniz ki, Azərbaycan xalqı könüllü olaraq qardaşlara, öz doğma qardaşlarına dəstək olmaq üçün kimin əlində nə var onu gətirir. Yəni, kimi yorğan gətirir, kimi döşək gətirir, kimi gödəkcə gətirir. Kimin imkanı nəyə çatırsa, onu da əsirgəmir"."Biz bütün dünyaya bir daha nümayiş etdiririk ki, təkcə dövlətlərarası səviyyədə deyil, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq əlaqələri mövcuddur və bu da təbiidir. Bizim ictimai təşkilatlarımız da öz dəstəyini göstərirlər. Heydər Əliyev Fondu artıq böyük təşəbbüsə start verdi. Fondun bütün imkanları, Fondun nəzdində çalışan bütün insanlar artıq bu yardım kampaniyasına qoşulmuşlar" - dövlət başçısı əlavə edib. Azərbaycan Prezidenti İlham Əliyev söylədim ki, Türkiyəyə həkimlər, xilasedicilər, könüllülər göndərilir və göndəriləcək: "Bilirsiniz ki, Azərbaycan hər zaman olduğu kimi, ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında idi və öz dəstəyimizi, öz həmrəyliyimizi həmişə olduğu kimi nümayiş etdirmişik. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik. Hər zaman Türkiyə də bizim yanımızdadır, yaxşı günlərdə, çətin günlərdə".

### TÜRKİYƏDƏ BƏRPA İŞLƏRİNƏ DƏ QOŞULMAĞA HAZIRIQ

Bu gün biz bütün dünyaya bir daha nümayiş etdiririk ki, təkcə dövlətlərarası səviyyədə deyil, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq əlaqələri mövcuddur və bu da təbiidir. "Əminəm ki, Türkiyə bu acı sınaqdan da şərəflə çıxacaq, bunu da aşacaq. Ancaq bu, inanılmaz dərəcədə böyük faciədir",-deyən dövlət başçımız söyləyib ki, hər bir qurtarılan can elə bil ki, bizə bir dünyanı bağışlayır: "Yenə də deyirəm, həm Türkiyədən, həm Azərbaycandan, həm digər ölkələrdən gələn xilasedicilər çox böyük iş görürlər. Əlbəttə ki, burada əsas yük və mənəvi yük Türkiyə hökumətinin üzərinə düşür. Mənim qardaşım hörmətli Prezident dərhal bütün göstərişləri verdi, bütün nazirləri fəlakət zonalarına göndərmişdir və tam əminəm ki, güclü və qüdrətli Türkiyə dövləti bu çətinliyi də aşacaq və tezliklə qurtarma, arama işlərinin aparılmasında öz səylərini davam etdirəcək. Ondan sonra təbii ki, bərpa işlərinə də biz qoşulmağa hazırıq. Yəni, Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır. Biz belə görürük, Türkiyə və Azərbaycan vətəndaşları da belə görürlər. Bu ağır günlərdə Türkiyənin yanında olmaq bizim üçün böyük şərəfdir".

Prezident İlham Əliyev onu da vurğulayıb ki, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Türkiyədə baş vermiş zəlzələ ilə bağlı əlində olan bütün imkanlarla yardım etməyə çalışır və çalışacaq: "Mənə verilən məlumata görə, özəl şirkətlər artıq fəaliyyətə keçiblər və həm maddi yardım, eyni zamanda, texniki yardım göstərməyə başlamışlar. Mənim göstərişimlə bizim ən böyük şirkətimiz SOCAR öz dəstəyini verməyə başlayır. Bilirsiniz ki, SOCAR-ın Türkiyədə böyük fəaliyyəti, böyük imkanları var. Bu şirkət, eyni zamanda, Türkiyə şirkətidir və əlində olan bütün imkanlarla yardım etməyə çalışır və çalışacaq". Sonda Prezident İlham Əliyev bu son 100 ilin fəlakəti ilə qarşı-qarşıya dayanan qardaş xalqımızı sarsıtmayacaq, Türkiyə dövlətinin iradəsinə təsir etməyəcək: "Bir daha deyirəm, keçmiş olsun, bütün həlak olanlara Allah rəhmət eləsin, yaxınlarına Allah səbir versin və təbii fəlakətlər olur, heç kim bundan sığortalı deyil. Amma Türkiyə dövlətinin operativ və çevik addımları bir daha göstərdi ki, insan amili Türkiyə hökuməti üçün əsas məsələdir və bu ağır sınaq, eyni zamanda, Türkiyənin gücünü bir daha bütün dünyaya göstərəcək. Bu, qardaş xalqımızı sarsıtmayacaq, Türkiyə dövlətinin iradəsinə təsir etməyəcək. Türkiyə dövləti güclü dövlətdir və bu fəlakətlə də mübarizədə öz gücünü göstərir".

Bəli, bu gün güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır. Dünya birliyində də, şübhəsiz ki, bu iki ölkənin yeri çox önəmli olmaqdadır və olacaq, "Bir millət, iki dövlət" olaraq xalqlarımız arasındakı dostluq, qardaşlıq münasibətləri daha da möhkəmlənəcək.

**RƏFİQƏ KAMALQIZI**

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikasının İctimai Televiziya və Radio Yayımları Şirkətinə maliyyə dəstəyi göstərilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamla 2024-cü ildə Almaniyada keçiriləcək futbol üzrə Avropa çempionatının yayım hüququnu Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinin əldə etməsi üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının İctimai Televiziya və Radio Yayımları Şirkətinə 940 500 (doqquz yüz qırx min beş yüz) avronun manat ekvivalentində vəsait ayrılıb. Maliyyə Nazirliyinə bu Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

***

Azərbaycanda teatr sənətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Aleksandr Yakovleviç Şarovski "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib. Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

# “Azərbaycan tərəfindən Türkiyəyə əsl qardaşlıq nümunəsi göstərildi”

## Türkiyə mediası Azərbaycanın qardaş dəstəyindən yazır













***Türkiyə mediası Azərbaycan Prezidentinin, dövlətinin və xalqının qardaş ölkədə baş verən təbii fəlakətlə bağlı yardımlarına, göstərdiyi dəstəyə dair informasiyalar yaymaqda davam edir. AZƏRTAC xəbər verir ki, nüfuzlu media qurumlarında Prezident İlham Əliyevin Türkiyənin Azərbaycandakı səfirliyinə gedərək başsağlığı verməsi, ölkəmizin və xalqımızın qardaş ölkənin yanında olmasını ifadə etməsi, eləcə də aparılan yardım kampaniyalarına dair məqalələr, videomateriallar xüsusi yer tutur.***

”Sabah TV” televiziya kanalının saytında yer alan məlumatda zəlzələdən zərər çəkənlərə dəstək məqsədilə ölkəmizdə başladılan kampaniya çərçivəsində toplanan 20 TIR yardımın Bakıdan yola salındığı bildirilib.

”Hürriyyət” qəzetinin saytında yayımlanan ”Azərbaycan Prezidenti Əliyev: bütün Azərbaycan xalqı qardaş Türk xalqının yanındadır” sərlövhəli materialda dövlətimizin başçısının bu fikirləri yer alıb: ”Azərbaycan hər zaman olduğu kimi, ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında idi və öz dəstəyimizi, öz həmrəyliyimizi həmişə olduğu kimi nümayiş etdirmişik. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik. Hər zaman Türkiyə də bizim yanımızdadır, yaxşı günlərdə, çətin günlərdə.

Bu dəhşətli zəlzələ bizi çox sarsıtdı. Yəni, hər birimizə böyük mənəvi əzab verdi. Biz qardaşlarımızın dərdinə şərikik. Yaralılara tezliklə Allahdan şəfa diləyirik. Mən əziz qardaşım, cənab Prezidentə telefonla başsağlığı vermək üçün zəng edəndə dedim ki, bütün varlığımızla biz Sizinlə bir yerdəyik və bilirsiniz ki, durmadan heyətlər göndərilir. Eyni zamanda, həkimlər, xilasedicilər, könüllülər göndərilir və göndəriləcəkdir”.

”sanliurfaolay.com”, ”beyazgazete.com”, ”sondakika.com”, ”dunyabulteni.net” və digər nüfuzlu xəbər saytlarında yerləşdirilən yazılarda Azərbaycan tərəfindən Türkiyəyə əsl qardaşlıq nümunəsi göstərildiyi, bunun bütün səviyyələrdə həyata keçirildiyi vurğulanıb. Qeyd edilib ki, həmişə olduğu kimi, bu çətin sınaqda da Azərbaycan qardaş Türkiyəni darda qoymayıb, ona dəstək göstərən ilk ölkə olub.

Prezident İlham Əliyevin bununla bağlı sözlərindən gətirilən sitatlarda deyilir: ”Bizim ictimai təşkilatlarımız da öz dəstəyini göstərirlər. Heydər Əliyev Fondu artıq böyük təşəbbüsə start verdi. Fondun bütün imkanları, Fondun nəzdində çalışan bütün insanlar artıq bu yardım kampaniyasına qoşulmuşlar.

Mənə verilən məlumata görə, özəl şirkətlər artıq fəaliyyətə keçiblər və həm maddi yardım, eyni zamanda, texniki yardım göstərməyə başlamışlar. Mənim göstərişimlə bizim ən böyük şirkətimiz SOCAR öz dəstəyini verməyə başlayır. Bilirsiniz ki, SOCAR-ın Türkiyədə böyük fəaliyyəti, böyük imkanları var. Bu şirkət, eyni zamanda, Türkiyə şirkətidir və əlində olan bütün imkanlarla yardım etməyə çalışır və çalışacaq.

Bilirəm ki, bizim dövlət qurumlarının nümayəndələri də öz təşkilatları çərçivəsində humanitar yardımın təşkilində fəaldırlar və bunu biz ancaq alqışlaya bilərik. Yəni, bütün Azərbaycan xalqı bu gün qardaş türk xalqının yanındadır   Əminəm ki, Türkiyə bu acı sınaqdan da şərəflə çıxacaq, bunu da aşacaq   Tam əminəm ki, güclü və qüdrətli Türkiyə dövləti bu çətinliyi də aşacaq və tezliklə qurtarma, arama işlərinin aparılmasında öz səylərini davam etdirəcək. Ondan sonra təbii ki, bərpa işlərinə də biz qoşulmağa hazırıq. Yəni, Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır. Biz belə görürük, Türkiyə və Azərbaycan vətəndaşları da belə görürlər. Bu ağır günlərdə Türkiyənin yanında olmaq bizim üçün böyük şərəfdir”.




## Ərdoğan Mehriban Əliyevanın tapşırığı üzrə Qaziantepdə olan Heydər Əliyev Fondunun nümayəndələri ilə görüşüb

**Zəlzələ bölgəsinə səfər edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu gün Qaziantep hava limanında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişi əsasında qardaş ölkəyə humanitar yardım aparan Fond əməkdaşları ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, baş vermiş faciə ilə əlaqədar Fondun prezidenti Mehriban Əliyevanın başsağlığını çatdıran qurumun nümayəndəsi Elvin Aslanov bu günlərdə bütün Azərbaycan xalqının, ölkənin bütün təşkilatlarının qardaş ölkə üçün zəruri yardımların göstərilməsi naminə səfərbər olduğunu bildirib.

Azərbaycan dövləti və xalqının Türkiyədəki faciə ətrafında səfərbər olmasına görə təşəkkürünü ifadə edən Rəcəb Tayyib Ərdoğan bildirib: ”İlham qardaşıma, Mehriban bacıma öz adımdan, millətim adımdan çox təşəkkür edirəm!” Azərbaycanda xalqın zəlzələ qurbanları üçün humanitar yardıma qoşulması, göndəriləcək yardımlar barədə məlumatlı olduğunu deyən Rəcəb Tayyib Ərdoğan Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycanın yanında olduğu kimi, indi də belə çətin gündə Azərbaycanın Türkiyənin yanında olduğunu bildirib: ”Öz adımdan, ailəm və xalqımız adından minnətdarlıqlarımı çatdırıram. Biz tək bu gün deyil, ölənədək birlikdə olacağıq. Bir millət, iki dövlət olaraq yola davam edəcəyik!”.

# YAP Mərkəzi Aparatı Türkiyədə zərər çəkənlərə humanitar yardım göstərib

Türkiyədə baş vermiş zəlzələ nəticəsində yaşanan faciə, minlərlə insanın həyatını itirməsi və yaralanması Azərbaycan xalqı tərəfindən dərin üzüntü ilə qarşılanıb. SİA xəbər verir ki, təbii fəlakətin baş verməsinin ardından Azərbaycan hər zaman olduğu kimi, ölkələrimiz və xalqlarımız arasında tarixi köklərə söykənən həmrəyliyin sarsılmazlığını bir daha nümayiş etdirdi, dərhal qardaş ölkəyə öz dəstəyini göstərdi. Acı faciənin fəsadlarının aradan qaldırılması üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq göstərişləri ilə təxirəsalınmaz tədbirlər həyata keçirilməkdə və qardaş Türkiyə xalqına humanitar yardım göstərilməkdədir. Eyni zamanda, Azərbaycan xalqının nümayəndələri könüllü olaraq yardım təşəbbüsləri irəli sürür, maddi və mənəvi dəstək göstərirlər.

Bütün Azərbaycan xalqı kimi, Yeni Azərbaycan Partiyasının üzvləri də bu çətin günlərdə Türkiyə xalqının yanında olduqlarını nümayiş etdirir, öz imkanları daxilində köməyini əsirgəmirlər. Bununla yanaşı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin tapşırığı əsasında YAP Mərkəzi Aparatı tərəfindən təbii fəlakətdən zərər çəkmiş şəxslərə humanitar yardım məqsədilə mal və avadanlıqlar, o cümlədən 45 ədəd generator, 150 ədəd elektrik qızdırıcısı, uşaqlar, qadınlar və kişilər üçün çoxlu sayda isti geyim dəstləri, yataq ləvazimatları, qış ayaqqabıları alınaraq qardaş Türkiyəyə göndərilməsi təmin edilmişdir.

# Anti-Rusiya sanksiyaları fonunda AZƏRBAYCAN ÜÇÜN NİKBİN PROQNOZLAR




Rusiya neft məhsullarına qiymət məhdudiyyətlərinin fevralın 5-dən qüvvəyə minməsi və Avropa İttifaqı Şurasının sanksiya tədbirləri çərçivəsində Rusiya Federasiyasında istehsal olunan və üçüncü ölkələrə verilən yanacaq, motor yağları və digər neft məhsulları üçün qiymətlərin yuxarı həddi barədə razılığa gəlinməsi dərhal bir sual doğurur ki, görəsən neft və yanacağa qarşı yeni anti-Rusiya sanksiyaları Azərbaycana təsir edəcəkmi? Bir halda ki, Rusiya neft məhsullarının ixracına qarşı sanksiyaların qüvvəyə minməsi ilə əlaqədar xam neftin qiymətində cüzi artım qeydə alınıb, deməli, bu sual tam məntiqidir və həm də yerinə düşür.

Məlumdur ki, istənilən bazarda qiymət həddini müəyyən edən tələb və təklif olur. Tələb artdıqca qiymət artır, hansı ki, buna tələb bazarı deyilir, əksinə, təklif artdıqca da qiymət azalır və bu da təklif bazarı olaraq qiymətləndirilir. Məsələ burasındadır ki, haqqında qeyd olunan neft və yanacağa qarşı yeni anti-Rusiya sanksiyaları nəticə etibarı ilə yalnız qlobal tələbi artıra bilər və bu isə həmin məhsullarının qiymətinin artacağı anlamına gəlir, hansı ki, bunun ölkəmizə, Azərbaycana heç bir mənfi təsiri ola bilməz. Diqqətə çatdıraq ki, Bloomberg ekspertlərinin fikrincə, Rusiya neft məhsulları üçün qiymət tavanı və onların ixracına qoyulan məhdudiyyətlər yalnız qlobal tələbi artırmaqla Avropa və digər bazarlarda yüksək qiymətlərin saxlanmasına kömək edəcək. Belə olan halda isə, əlbəttə ki, Azərbaycanda yanacaq və neft-kimya məhsulları istehsalçıları gələcəkdə bu proseslərdən heç bir mənfi təsir görə bilməzlər, yalnız faydalana bilərlər.

Bilirik ki, Avropa İttifaqının Rusiyaya qarşı sanksiyaları həmin ölkə ilə Ukrayna arasında hələ də davam edən müharibə səbəbindəndir və bu fondadır. Onu da yaxşı bilirik ki, məhz Rusiyanın neft və neft məhsullarına qarşı istənilən sanksiya nəticə etibarı ilə Avropanın yanacaq çatışmazlığına səbəb olmaqdadır. Xüsusilə qeyd etmək yerinə düşərdi ki, Ukraynada bir ilə yaxındır davam edən müharibə və bununla bağlı Avropa İttifaqının sanksiyaları Avropanın yanacaq çatışmazlığı ilə üzləşən bazarının normallaşmasına kömək etmir, əksinə mənfi təsir edir. Eyni zamanda, Bloomberg-in məlumatına görə, 2023-cü ildə neft hasilatı üzrə kursun davam etdirilməsi ilə əlaqədar həftə sonu keçirilən Beynəlxalq Enerji İqtisadiyyatı Assosiasiyasının konfransında çıxış edən Səudiyyə Ərəbistanının energetika naziri, şahzadə Əbdüləziz bin Salman bu barədə çıxışı zamanı sanksiyaların nəticədə defisitə səbəb olacağını vurğulayıb. Bu isə o deməkdir ki, Avropanın yanacaq çatışmazlığı hələ davam edəcək və bu çatışmazlıqla üzləşən bazarların normallaşdırılacağı inandırıcı deyil. Bir sözlə, hələ də enerji ehtiyatları ilə bağlı təklifin tələbdən aşağı olacağı və bunun da qiymət artımına təsiri gözlənilir. Bu isə Azərbaycan üçün heç də arzuolunmaz sayılmır.

Onu da diqqətə çatdıraq ki, hələ ötən ilin sonunda Rusiyadan Avropaya dəniz yolu ilə neft tədarükünə embarqo tətbiq edilib, ixrac isə yalnız "Drujba" neft kəməri ilə məhdudlaşdırılıb. Təbii ki, bu da nəticəsiz ötüşməyib və Rusiya neftinin Avropa İttifaqına tədarükünün ümumi həcminin sutkada 4,5 milyon barelinin, dekabrın 5-dən etibarən isə, təxminən yarısının axınının dayanması ilə nəticələnib. Nəzərə çatdıraq ki, Beynəlxalq Enerji Agentliyinin (BEA) proqnozlarına görə, embarqo nəticəsində Rusiyanın neft hasilatı bu il 1,4 milyon barel azalacaq. Belə bir azalmanın da təsirsiz ötüşməyəcəyi bəllidir və gözlənilən odur ki, nəticədə dizel yanacağı da daxil olmaqla neft qiymətlərinə təzyiq artacaq. Doğrudur, enerji resurslarını ucuz qiymətə satmaq zərurətindən dolayı Rusiya mədən şirkətləri gəlirlərinin əhəmiyyətli hissəsini itirməklə neft ixracını Hindistan, Çin və bir sıra Cənub-Şərqi Asiya ölkələrinin bazarlarına yalnız qismən dəyişdirə bildilər, amma bu da nəticəyə dəlalət edə bilməz və bununla yenə də qlobal tələbatı azaltmaq mümkün olmaz.

Rusiya Federasiyasından neft məhsullarının ixracı üçün 5 fevral 2023-cü il tarixindən etibarən qiymət tavanı tətbiq edilməsi, Avropa İttifaqı Şurasının üçüncü ölkələrə tədarük edilən Rusiya neft məhsulları üçün qiymətlərin yuxarı həddi ilə razılaşması o deməkdir ki, Qərb nəqliyyat şirkətlərinə Rusiya neftinin və neft məhsullarının Qərbin müəyyən etdiyi limitdən yüksək qiymətə çatdırıldığı halda üçüncü ölkələrə daşınması və digər xidmətlərin göstərilməsi qadağandır. Bu həmçinin o deməkdir ki, müstəqil operatorlar tərəfindən neft məhsullarının daşınmasını sığortalamaq belə Qərb maliyyə institutlarına da qadağandır. Nəticə onu deməyə əsas verir ki, müəyyən istisnalar nəzərə alınmaqla, Avropa regionunda Rusiya neft məhsullarının satışı tamamilə dayandırılıb. Hadisələrin bu şəkildə davam etməsi də əlbəttə ki, neft və neft məhsullarına ilk növbədə Avropada tələbatın daha da artmasına gətirib çıxarır.

Rusiya neft məhsullarına qarşı sanksiyaların qüvvəyə minməsinin qlobal neft bazarında qiymət parametrlərinə dərhal təsir etməsi, yaxud bundan sonra davamlı olaraq təsir edəcəyi heç də təəccüblü deyil. Bu gözlənilən idi. Məhz 5 fevral tarixindən etibarən qiymət tavanının tətbiq edilməsinin ardınca, fevralın 6-da, hətta səhər saatlarından belə Brent markalı neftin aprel fyuçerslərinin qiymətinin 0,31% artaraq 80,19 dollar/barel həddində olması deyilənləri təsdiq edir. Təsdiq edir ki, Rusiya neft məhsullarına qarşı sanksiyaların qüvvəyə minməsi həm təklifin azalmasın, təklifin artmasına, həm də qiymətlərin də bahalaşmasına səbəb olmalıdır. Bunun isə Azərbaycana hansısa mənfi təsirləri ola bilməz, əksinə, daha böyük mənfəət əldə ediləcəyi barədə proqnozlar daha məntiqidir.

Ələlxüsus uzunmüddətli perspektivdə Avropada və bir sıra digər qonşu regionlarda Rusiya neft məhsullarına sanksiyaların tətbiqi neft məhsullarına olan qıtlığın daha da artacağını vəd edir. Bu isə tələbin daha da artacağı deməkdir və qeyd etdiyimiz kimi, tələbin artması da öz növbəsində qiymət artımına səbəb olan amil olaraq qiymətləndirilir. Şübhəsiz ki, neft və neft məhsullarının qiymətlərinin yüksək həddə saxlanılması Azərbaycan üçün yalnız faydalıdır və enerji resurslarının ixracından məqbul səviyyədə gəlir əldə etmək imkanı gözləniləndir. Cari ildə, 2023-cü ildə "Azeri Light" markalı neftin orta qiymətinin 80-90 ABŞ dolları dəhlizi daxilində saxlanması optimal hesab olunur və buna ümid etməyə də dəyər.

Heç şübhəsiz ki, neft məhsullarına qlobal tələbat ölkəmiz üçün onların ixracından əldə olunan gəlirləri artırmaq şansı deməkdir. Bu baxımdan da cəsarətlə deyə bilərik ki, neft məhsullarının istehsalının həcminə dair statistik göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşdırmaq imkanı da lazımınca qiymətləndirilməlidir. Çox sevindirici haldır ki, bu il yanacaq və neft-kimya sektorunda vəziyyət xeyli stabildir. Neft Emalı Zavodu Avro-5 standartına uyğun dizel yanacağının istehsalı üçün yeni əsas texnoloji qurğuların quraşdırılmasını böyük ölçüdə başa çatdırıb, cari ildə Belarus Neft Emalı Zavodu daha yüksək keyfiyyətli Aİ-92, eləcə də Avro-5 standartına cavab verən yüksək oktanlı Aİ-95 benzininin istehsalı üzrə bütün texniki işləri başa çatdırmağı planlaşdırır. Yəni bütün bunlar nikbin proqnozlar verməyə tutarlı əsas yaradır. Bir sözlə, Avropa İttifaqının tətbiq etdiyi sanksiya nəticəsində Rusiya neft məhsullarının Avropa və bir sıra əlaqəli bazarlara tədarükünün azaldılması, eləcə də daxili neft-kimya kompleksinin modernləşdirilməsi üzrə işlərin başa çatdırılması, müxtəlif yanacaq növlərinin ixracını genişləndirmək baxımından Azərbaycan üçün əlavə imkanlar deməkdir. Bütün bunlar isə ümumilikdə ölkəmiz üçün daha yüksək gəlir əldə ediləcəyini vəd edir.

*İnam Hacıyev*



# Mehriban Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondunun göndərdiyi humanitar yardım Türkiyədə zəlzələ bölgəsinə çatdırılıb

**Türkiyədə çoxsaylı insan tələfatına səbəb olmuş zəlzələ qurbanlarına dəstək məqsədilə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, Heydər Əliyev Fondu tərəfindən qardaş ölkəyə humanitar yardım aparan xüsusi təyyarə fevralın 9-da səhər saatlarında Qaziantep hava limanına çatıb.**




AZƏRTAC xəbər verir ki, Fondun zəlzələ bölgəsinə ezam olunan əməkdaşları humanitar yardımı Türkiyənin faciə bölgəsində zərər çəkmiş vətəndaşlara çatdıracaqlar. Faciədən zərər çəkmiş şəxslər üçün Heydər Əliyev Fondu tərəfindən 36 ton humanitar yardım göndərilib. Humanitar yardıma müxtəlif dərman preparatları, oksigen maskaları, filtrli sistemlər, sarğı materialları, onurğa taxtaları, ilkin yardım boyunluqları, xərək və s. tibbi ləvazimat və avadanlıqlar, isti geyimlər, çadırlar daxildir.






PUBLİSİSTİK SƏTİRLƏR



# Zəlzələnin ən duyğulu və həssas anlarından...

**9 fevral. Dörd gün öncə Türkiyə səhər saatlarında fəlakətə oyandı. Bu gün artıq Kahramanmaraşda zəlzələnin 4-cü günüdür. Çox acı nəticələr açıqlanıb. Mərkəzi Kahramanmaraş və 10 şəhəri vuran 7,7 və 7,6 ballıq zəlzələlərdə ümumi can itkisi 16 min nəfəri keçib, yaralananların sayı isə 64 min nəfərin üzərindədir. Rəqəmlər sürətlə artır.**

Episentri Kahramanmaraşın Pazarcık rayonunda olan 7,7 bal gücündə zəlzələ Qa-



ziantep, Şanlıurfa, Diyarbakır, Adana, Adıyaman, Osmaniye, Hatay, Kilis, Malatyada baş verib. Zəlzələ nəticəsində xüsusilə Kahramanmaraş, Hatay və Adıyamanda böyük dağıntılar olub.

Görülən işlər nəticəsində yaralanan və xilas edilənlərin sayı 37 min 11-ə yüksəldi. Dəyən zərəri qiymətləndirmə işlərinə görə dağılan binaların sayı hələlik 5 min 775-dir. Tam təsdiq olmasa da, "dağılmış" kimi bildirilən binaların sayı 11.302 olaraq açıqlanıb.

Türkiyədə baş verən bu böyük fəlakət qardaş Azərbaycanda da böyük həyəcanla qarşılanıb. Azərbaycanlılar hadisələri anbaan izləyir, türkiyənin kədərinə, matəminə şərik olurlar. İzlədiyimiz hadisələrdən insanı duyğulandıran və göz yaşı ilə qarşıladığımız bir neçəsi

***

## Hatayda yaşayan Trabzonlu ana, ata və beş əkizdən dördü zəlzələdə həyatını itirib

Kahramanmaraşda baş verən zəlzələlərdə Hüseyn Huyluoğlunun, Trabzonlu həyat yoldaşı Merve Huyluoğlunun və 4 övladının cansız bədənləri Hatayda bir mənzilin dağıntıları altından çıxarılıb.

### 2020-ci ildə Hatayda məskunlaşıblar

17 il əvvəl işləmək üçün Səudiyyə Ərəbistanına gedən və turizm agentliyində çalı-



şan Hataylı Hüseyn Huyluoğlu 2013-cü ildə Səudiyyə Ərəbistanında doğulub böyüyən Trabzonlu Merve Özerlə ailə həyatı qurub.

2016-cı ildə ilk qızlarını qucağına alan Huyluoğlu cütlüyü 2020-ci ilin mart ayında 3 oğlan, 2 qız dünyaya gətirib.

### Onlar nazirlik tərəfindən evə gətirilib

29 iyul 2020-ci il tarixində koronavirus epidemiyası səbəbilə böyük çətinliklərlə üzləşən və beşəmlərinin şəxsiyyət vəsiqələrini ala bilmədiyi üçün ölkədə qapalı qalan Huyluoğlu ailəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ölkəyə gətirilib. Huyluoğlu ailəsi Türkiyəyə gəldikdən sonra Hatayda məskunlaşıb.

### Ana, ata və beş əkiz dağıntılar altında qalıb

Huyluoğlu ailəsinin üzvü Hüseyn Huyluoğlu, həyat yoldaşı Merve Huyluoğlu və beşlikləri zəlzələdə dağıntılar altında qaldı.

Axtarış-xilasetmə işlərindən sonra Huyluoğlu ailəsinin anası və atası ilə birlikdə beşlikdən 4-nün cansız cəsədləri dağıntılar altından çıxarılıb.

Hüseyn Huyluoğlunun ölüm xəbərini işlədiyi şirkət açıqlayıb. Onun sosial media hesabındakı paylaşımında aşağıdakı ifadələr yer alıb: "Məkkə bələdçimiz Hüseyn Huyluoğlu ailəsi ilə birlikdə Hatay zəlzələsində dünyasını dəyişdi. Yalnız oğlu Məhəmməd sağ qalıb. Allah rəhmət eləsin, məkanları cənnət olsun, ailəsinə Allah səbr versin".

***

## Şaxtalı soyuğa baxmayaraq ata 15 yaşlı qızının əlini buraxmayıb



Türkiyə mərkəzi Kahramanmaraşda olan iki güclü zəlzələ ilə sarsıldı. Birincisi 7,7, ikincisi isə 7,6 bal gücündə baş verən zəlzələ Kahramanmaraş, Kilis, Diyarbəkir, Adana, Osmaniye, Qaziantep, Şanlıurfa, Adıyaman, Malatya və Hatayda böyük dağıntılara səbəb olub.

### Ağrı meydanı

Kahramanmaraşda bir atanın ölçüyəgəlməyən ağrısı görüntüləndi. Ata Məsut Hançer zəlzələdə həyatını itirən 15 yaşlı qızı İrmakın əlini havanın soyuq olmasına baxmayaraq bir saniyə belə buraxmayıb. Kədərli ata zəlzələnin ilk günündən binanın dağıntıları arasında qızını gözləyir.

***

## Aksaraylı müəllimlər Gülşən və Raziyə zəlzələdə həyatını itirib

Aksarayın Əskil mahalında qeydiyyatda olan müəllimlərdən 25 yaşlı Gülşən Köylü Hatayın Kırıkhan rayonunda, 23 yaşlı Raziye Şanlav isə Şanlıurfanın Hilvan rayonunda dünyasını dəyişib.

Ardı Səh. 6

# Zəlzələnin ən duyğulu və həssas anlarından...

Əvvəli Səh. 5

Episentri Kahramanmaraşın Pazarcık rayonunda olan və 10 vilayətdə baş verən zəlzələdə Hatayın Kırıkhan rayonunda sinif




müəllimi kimi çalışan, 5 bacısı və 1 qardaşı olduğu öyrənilən Gülşen Köylü zəlzələdən xilas oldu, lakin uçan minarənin altında qalıb. Xilasedici qruplar səhər saatlarında onun cəsədini tapıblar. Əskil rayonuna gətirilən müəllim dəfn üçün rayonun Çulha kəndinə aparılıb.

Şanlıurfanın Hilvan rayonunda çalışan din mədəniyyəti və əxlaq müəllimi Raziyə Şanlav zəlzələ zamanı evdən çıxarkən çökən minarənin altında ölüb.

Subay olan Şanlavın ilk vəzifə yerinin Şanlıurfada Hilvan olduğu öyrənilib. Raziyə müəllimin də Əskil rayonunda torpağa tapşırılacağı bildirilib.

Aksaray valisi Həmzə Aydoğdu zəlzələdə həyatını itirən müəllimlər üçün başsağlığı verib.

***

## Hatayda dağıntılar altından çıxan uşaq: Məktəbə necə gedəcəyəm?..

Baş verən zəlzələlər ürəyimizi parçaladı. 10 vilayətdə baş verən zəlzələdə xilase-




dici qruplar günlərdir canla-başla işə başlayıb. İşlər davam etdikcə xoş xəbərlər gəlməyə davam edir. Daha bir şad xəbər Kahramanmaraş zəlzələlərindən ən çox zərər çəkən bölgələrdən biri olan Hatayın İskenderun rayonunda axtarış-xilasetmə işləri davam edərkən, zəlzələdən saatlar sonra daha bir uşağın dağıntılar altından çıxarılması ilə gəldi.

Hatayın İskenderun rayonunda saatlar sonra dağıntılar altından çıxarılan oğlanın ilk sözləri emosional olub. Adının öyrənilməsi mümkün olmayan 12-13 yaşlı uşaq dağıntılar altından çıxarılaraq xərəyə qoyulanda ilk sözləri "Mən məktəbə necə gedəcəyəm?", olub.

***

## 42 saat sonra dağıntılar altından xilas edilən Xədicə: limonlu su verin

Türkiyə Kahramanmaraşda olan 2 şiddətli zəlzələ ilə sarsıldı. 10 əyaləti əhatə edən fəlakət böyük dağıntılara səbəb olub.Zəlzələnin ikinci günündə də xilasetmə işləri sürətini azaltmadan davam etdi.

Dövlətin zəlzələ bölgələrinə səfərbər edilən bütün qurumlarının fəaliyyəti sayəsində 42 saatdan sonra möcüzəvi qurtuluş da ürəkləri sevinclə doldurdu.

## "Mənə limonlu su ver"

Hatayda 42 saat sonra dağıntılar altından çıxarılan 16 yaşlı Haticenur Aslı Ardıçın ilk sözləri "Mənə limonlu su ver" olub.

Xilasetmə qrupları ilə davamlı olaraq danışan 16 yaşlı Haticenur Aslı Ardıç onlar tərəfindən saatlarla davam edən işin ardından Hatayda zəlzələdə yıxılan Sanayi Məhəlləsi 600 Evlər Sitesi'nde dağıntılar altından sağ çıxarılıb.

Təcili yardıma yerləşdirilən Haticenur




Aslı Ardıçın ayaqları və çiyin nahiyəsindən aldığı zərbənin vəziyyətinin yaxşı olduğu bildirilib.

***

## Dağıntılar altında oğlu ilə söhbət edən ata: "Səni çox sevirəm"...

Türkiyənin ürəyi zəlzələ bölgələrində döyünür. Mərkəzi Kahramanmaraşda baş verən 2 şiddətli zəlzələdən sonra 10 vilayət başdan-başa dağılıb. Fəlakətin 3-cü gününə çatınca ağır söküntülər, çökmələr və can itkiləri daha da ağırlaşmağa başlayıb.

Göndərilən bütün dövlət qurumları ilə yanaşı, ölkənin hər yerindən könüllülər də zəlzələ bölgələrinə yola düşüb.



## 53-cü saat keçdi

Dağıntılar altından çıxarılan vətəndaşlar sağ qalmalarına sevinmədən yaxınlarını və ailələrini gözləməyə, axtarmağa başlayıblar.



53-cü saat keçdikcə möcüzəvi qurtuluşlarla ekipaj və zəlzələdən sağ çıxanlar dərin nəfəs aldı.

Dağıntılar altında oğlu ilə söhbət edən ata "Səni çox sevirəm. Çıxanda oynayacağıq, oldumu?",- dedi. Övladı atasının bu sözlərindən böyük təsəlli aldı.

Ata tərəfindən lentə alınan video sosial şəbəkədə paylaşılıb

## "Çıxanda oynayacağıq"

Atam dedi: "Yaxşısan? Oğlum, səni görürəm. Səni çox sevirəm. Çıxanda matçımız olacaq, yaxşı?".

Atası ilə şok və qorxu içində danışan oğlan "Əvvəlcə anamı çıxar" deyib.

Kiçik uşaq yanğınsöndürənlərin köməyi ilə sağ-salamat çıxarılıb.

Budur, ürəkləri parçalayan o anlar...

***

## Hatayda 44 saat dağıntılar altında qalan 2 yaşlı Məhəmməd xilas edilib

Defne rayonunda dağıntılar altında qalan 2 yaşlı Məhəmməd üçün uzun sürən mübarizə başlayıb. 44 saatdan sonra xilas edilən və susuz qalan körpəyə şüşə qapağı ilə su içdiriblər.

Dağıntılar altından çıxan körpə sağlamlıq qruplarına təhvil verilib.

***

## Hatayda zəlzələnin 35-ci saatlarında möcüzəvi qurtuluş

10 vilayəti viran qoyan fəlakətdən sonra ağır itkilər olub, yaralı vətəndaşlar dağıntılar altından çıxarılmağa başlanıb.

İlk andan fəlakət bölgələrində ürəkləri ilə döyüşən komandalar zəlzələnin ikinci günündə möcüzəvi qurtuluşla böyük sevinc yaşadılar.

Dağıntılar altında qalan 5 yaşlı Sidra adlı uşaq xilas olunmaq üçün saatlarla gözləyib və mədən işçilərinin axtarış-xilasetmə işləri ilə 35 saat sonra xilas edilib. Həmin anlar xilasedicilər tərəfindən lentə alınıb. O anları izləyənlər böyük sevinc yaşadılar.



Atasına təhvil verilən balaca qızın üzünə əks olunan şok vəziyyəti hər kəsin ürəyini sızlatdı.

Kiçik qızın 8 aylıq Nur və 3 yaşlı Seyfəddin adlı bacı-qardaşının cəsədləri tapılıb.

*Tərcümə-Mətanət Məmmədova*

**Ermənistanda vəziyyətin necə olduğu, hətta necə ola biləcəyi belə az qala hər kəsə bəllidir. Bu ölkədə sıravi vətəndaşlar çox acınacaqlı haldadır deyən ermənilər qəti səhv etmirlər, çünki onları düşünən yoxdur və bunu bütün dünya da görür. Görür ki, bu ölkədə yaşayan insanlar adi həyat normalarından çox aşağı səviyyədədirlər və bundan sonra vəziyyətlərinin düzələcəyinə nə onların, nə də digərlərinin ümidləri var. Ona görə ki, adi ermənilərdən fərqli olaraq, erməni məmurların ailələri ərzaq və zəruri malların bahalaşmasını hiss etmirlər və onlar yüksək maaş, mükafatlar, ələlxüsus da korrupsiya hesabına kef çəkirlər və kasıblardan xəbərləri də yoxdur.**





# Milyonların ümidini puç edən YOXSUL ERMƏNİSTAN







Adama elə gəlir ki, 2 milyondan bir qədər çox erməni heç də Ermənistanın iqtisadiyyat naziri Vaan Kerobyanla eyni ölkədə yaşamırlar, hətta o qədər fərqli haldadırlar, sanki ayrı-ayrı paralel dünyalara aiddirlər. Bu təəssürat heç də təsadüfi yaranmayıb, həmin ölkənin iqtisadiyyat nazirinin Milli Assambleyanın divarları arasında jurnalistlərlə söhbətindən sonra əmələ gəlib. Kerobyan çox ciddi cəhdlə erməniləri nəyə isə əmin etməyə çalışırmış kimi ölkəsində vəziyyətin yaşılaşmaqda olduğu barədə ağız dolusu danışır. Özü də utanmadan, qızarmadan və bir zəttə xəcalət hissini yaxına buraxmadan danışır. Onun sözlərindən belə çıxır ki, Ermənistanda yaşayanlar artıq bir il bundan əvvəlkinə nisbətən daha yaxşı yaşamağa başlayıblar, amma bunu hansı əsasla dediyi hələ də heç kimə bəlli deyil və əgər gözlərini açıb vətəndaşların həddindən artıq kasıb yaşadığını görsə, bir az da utanmaq, qızarmaq hissi olsa xəcalət çəkərdi.

"Ötən ildə, 2022-ci ildə Ermənistanda adambaşına düşən ÜDM artıb", deyən Kerobyan bunu əsaslandırmadan söyləyir. Guya adambaşına düşən ÜDM-nin təxminən 4620 dollardan 6700-6800 dollara çatacağını uyduran iqtisadiyyat naziri ölkəsini Albaniya, Bosniya və Herseqovina kimi ölkələrlə müqaisə edir, heç təsəvvürü olmayan biri kimi onların sırasında olduqlarını deyir. Ən gülünc məqam isə, jurnalistlərin nazirdən ölkələrində insanların daha pis yaşaması, guya ki, ikirəqəmli iqtisadi artım fonunda yoxsulluğun səviyyəsinin çox yüksək olması fonunda iqtisadiyyatın necə inkişaf etdiyini soruşması zamanı Kerobyanın cavabı olub. "Vətəndaşlar pis yaşamırlar, orta hesabla yaxşı yaşayırlar, ən azından əvvəlkindən yaxşı yaşayırlar, hətta iqtisadi artım da bunu göstərir və əgər iqtisadi artımımızın inklüzivliyini də nəzərə alsaq, deyə bilərik ki, insanların əksəriyyəti daha yaxşı yaşayır", deyən iqtisadiyyat nazirinin həqiqətən də utanmaq hissinin olmadığı dərhal özünü biruzə verir. Ona görə ki, jurnalistlər haqlı olaraq vəziyyətin ağır olduğunu, ölkələrində yoxsulluğun həddindən artıq olduğunu açıq şəkildə bildirdikləri halda, Kerobyan yalandan belə cavab verirsə, deməli, bu nazirin xəcalət çəkmək kimi bir niyyəti belə yoxdur. Axı hər kəs, ələlxüsus da Ermənistan ictimaiyyəti bilir ki, ermənilər çox acınacaqlı yoxsulluq içərisindədirlər və nazirlərinin söylədikləri ağ yalandır.

Görünür milyonlarla ermənin ümidini, hər zaman olduğu kimi, yenə də Ermənistan hökuməti puç etməkdədir və hətta görünən odur ki, bundan sonra da onların yaxşı yaşamaq şansı sıfırın altındadır. Ona görə ki, milyonlarla insanın, özlərinin hesablamalarına görə, üç milyona yaxın insanın ümidini yoxsul Ermənistan doğrulda bilməz. Bu işğalçı ölkənin vəziyyəti o qədər acınacaqlıdır ki, həmin o yalançı artım barədə deyilənlər ancaq nağıla bənzəyir. Bəli, sözsüz ki, Kerobyan kimi həyasızlar, utanmazlar və ümumiyyətlə, yalana vərdiş edən, bunu adi hal sayan hökumətlər ölkədə ikirəqəmli iqtisadi artım olduğunu göstərə, hətta nümayiş də etdirə bilər, amma əhalinin böyük əksəriyyətinin bunu hiss etməməsi onların yalanlarını ortaya qoyur, insanları aldatmaq cəhdlərini də alt-üst edir.

Ermənistanında yaşayan insanlar inflyasiyanın acı nəticələrini sözün əsl mənasında öz gözləri ilə görür və hiss edirlər və əslində ikirəqəmli, bəlkə də üçrəqəmli olan məhz budur. Bu ölkədə ərzaq məhsullarının hədsiz bahalaşması, bu bahalaşmanın da hər an davam etməsi ermənilərə zərbə vurmaqda davam edir və onların yaşayışları nazirlərinin sözlərinin əksinə olaraq, getdikcə daha da acınacaqlı olur. Belə bir bahalaşma tempi ermənilərə davamlı şəkildə zərbə vurmaqdadır. Son bir ildə Ermənistanda demək olar ki, hər şey, un və un məhsulları, ət və ət məhsulları, süd məhsulları sürətlə bahalaşıb. Bu ölkədə əhalinin əksəriyyətinin gəlirləri sadəcə olaraq bahalaşma ilə ayaqlaşmır, onların maaşları, pensiyaları gündəlik həyatlarına qətiyyən uyğun gəlmir. Ola bilsin, paytaxt İrəvanda tikinti sektorunda, yaxud xidmət sektorunda çalışanların olduğunu iqtisadiyyat naziri nəzərdə tutaraq belə bir həyasız şəkildə söz söyləyir, amma o nəzərə almır ki, İrəvan bütün Ermənistan demək deyil. Kerobyan nə vaxtsa ölkəsinin rayonlarına səfər edib əhalinin yaşayış vəziyyəti ilə, yoxsulluq səviyyəsi ilə tanış olubmu? Bölgələrə səfər etməməsi, orada yaşayanların səfalət içərisində yaşamasını görməməsi bir yana, Kerobyan bilmirmi ki, Statistika Komitəsinin və Dünya Bankının ötənilki birgə hesabatına əsasən, "Ermənistanda sosial mənzərə və yoxsulluğun səviyyəsi" ən acınacaqlı səviyyədədir? Qeyd olunduğu kimi, bu ölkə əhalisinin demək olar ki, böyük əksəriyyəti yoxsulluq, səfalət həddində yaşayır və Kerobyanın utanmadan uydurduğu, adambaşına düşən ÜDM artımını hiss edən yoxdur.

Bu vaxta qədər Ermənistan vətəndaşlarının əksəriyyəti adətən Rusiyaya və Ukraynaya işləmək, qazanmaq üçün üz tuturdularsa, indi məlum hadisələr, yəni Rusiya-Ukrayna müharibəsi fonunda onlar da bundan məhrum olublar. Ən azından ermənilərin bu ölkələrə gedişi məhdudlaşıb. Belə olan halda isə, Ermənistana həmin ölkələrdən olan pul köçürmələrinin də həcminin əhəmiyyətli dərəcədə azaldığı başadüşüləndir. Bu isə o deməkdir ki, işləmək üçün başqa ölkəyə üz tutmaqdan da məhrum olanların təkcə özləri deyil, qohumları da müvafiq olaraq maddi çətinliklə qarşılaşmalı olublar. İqtisadiyyat naziri onu da bilməlidir ki, hazırkı, mövcud şəraitdə ölkəyə daxil ola bilən pul vəsaitlərindən də məhrum olan Ermənistan vətəndaşlarının vəziyyəti bir az da acınacaqlı olub. Digər tərəfdən də, işsizliyin səviyyəsinin artması ilə bağlı onsuz da Ermənistanın çətinlik çəkdiyi bir durumda belə bir vəziyyət, yəni işsizlərin başqa ölkələrə gedə bilməməsi həmin ölkə üçün nəinki arzuolunan deyil, tamamilə sıxıntılı hal yaradır. Çünki Ermənistanda işsizliyin aradan qaldırılması üçün hansısa imkandan söhbət belə gedə bilməz. Məşğulluq məsələləri ilə bağlı bu ölkə çoxdandır ki, çətin durumdadır və vətəndaşları üçün iş yerləri təklif edəcək halı belə yoxdur. Bütün bunların fonunda isə ölkənin iqtisadiyyat naziri əhalinin vəziyyətinin keçən ilkindən daha yaxşı olduğunu uydurur, hansı ki, vəziyyət tamamilə tərsinə olduğunun sübut edir.

Doğrudur, ola bilsin ki, Kerobyan özü yaxşı yaşayır. Axı Ermənistanda nazirlər, məmurlar və iqtidaryönlü deputatlar yaxşı yaşayırlar, yaxşı vəziyyətdədirlər. Onlar və ailələri ərzaq və zəruri malların bahalaşmasını hiss edə, duya belə bilməzlər. Bu "hiss etməmək" ənənəsi təəccüblü də görünmür, çünki daim artmaqda olan yüksək maaşlarına əlavə olaraq, korrupsiya və mənimsəmə yolu ilə cüzdanlarını daim doldura bilirlər. "Toxun acdan xəbəri olmaz", zərb məsəlində deyildiyi kimi, ac Ermənistan vətəndaşlarının acınacaqlı vəziyyəti barədə iqtisadiyyat naziri xəbərsiz olduğunu nümayiş etdirə bilər, amma bu o demək deyil ki, səfalət içərisində olanların yaxşı yaşadığını söyləyəcək qədər həyasızlıq edə bilər. Bir neçə məmurun yaxşı yaşaması, özü də qanunsuz, talama yolu ilə yaşayışını yaxşılaşdırması o demək deyil ki, bütövlükdə Ermənistan vətəndaşları yaxşı yaşayırlar. Əgər bu gün ölkənin hansısa məmuru, naziri vətəndaşların acınacaqlı vəziyyətini düzgün ifadə etmirsə, bunu gizlədirsə, yalan məlumatlar söyləyərək onların yaxşı yaşadığını jurnalistlərə bildirirsə, deməli, həmin ölkə vətəndaşlarının bundan yaxşısına heç gümanı da qalmır. Çünki hansısa məmur, hansısa nazir, yaxud bütövlükdə hökumət bu yoxsulluğun aradan qaldırılmasını düşünmək belə istəmir. Belə olan halda səfalət içərisində olan kütlə nəyə ümid edə bilər? Ümumiyyətlə, özü yoxsul olan dövlət, Ermənistan dövləti vətəndaşlarını yoxsulluqdan necə çıxara bilər? Kerobyanın ölkə vətəndaşlarının yaxşı yaşaması barədə fikirlərini sözlə ifadə etmək asandır, amma bu sözün arxasında vətəndaşların yaxşı yaşayışı durmalıdır, fəqət bunu görən biri yoxdur.

Sözsüz ki, həmin ölkədə məskunlaşan ermənilərin də taleyinə məhz yoxsul Ermənistanda yaşamaq düşüb. Bu ölkənin hakimiyyəti dövlətin və xalqın hesabına öz həyat səviyyəsini yaxşılaşdırmaq barədə düşünür. Əslində, həmin o yoxsul Ermənistanın hakimiyyətinin, ayrı-ayrılıqda məmurunun gücü yalnız elə öz rahatlığını düşünməyə çata bilər, çünki ölkənin bu vəziyyətdən çıxmağa zərrə qədər potensialı yoxdur axı. Ona görə də bütövlükdə Ermənistan hakimiyyəti, elə baş nazir Nikol Paşinyanın özündən tutmuş, Vaan Kerobyana kimi, hər biri reallıqdan çox uzaq olan müsbət rəqəmlər və hesabatlar səsləndirməkdən başqa çarə görmürlər. Yəni, özləri hamıdan daha yaxşı bilirlər ki, yoxsul Ermənistan milyonların ümidini doğrulda bilməz, yalnız puç edə bilər. Buna görə də ağıllarına gələni yalandan danışmağı, əsassız fikirlər söyləməyi, şişirtmə statistik göstəricilərlə daxili auditoriyanı aldatmağı həm məqbul sayırlar, həm də yeganə çıxış yolu hesab edirlər ki, bu da çarəsizliyin təzahürüdür.

Yeri gəlmişkən, Albaniya, eləcə də Bosniya və Herseqovina haqqında bir neçə məqama toxunmaq yerinə düşərdi ki, başda Ermənistanın iqtisadiyyat naziri Vaan Kerobyan olmaqla, ümumiyyətlə, onun kimi düşünənlər özlərini bir də gülünc günə qoymasınlar. Görünür, Kerobyan və onunla eyni ağılda olanlar məktəbdə və ya ali təhsil müəssisəsində çox zəif oxuyublar, ya heç oxumayıblar və buna görə də dünyanın bu hissəsində, Avropanın ən kasıb olan bu iki dövlətinin iqtisadi inkişaf səviyyəsi haqqında zəif təsəvvürə malikdirlər. Ola bilsin ki, heç bir təsəvvürə də malik deyillər. Əks halda öz ölkələrini belə ölkələrlə müqaisə etməzdilər. Bir ölkənin ki, iqtisadiyyat naziri ölkəsinin həmin o ölkələrin inkişaf səviyyəsinə çatmaqda olduğunu bəyan edirsə, bu, həm həmin ölkənin nazirinin, məmurunun "səviyyəsini" ortaya qoyur, həm ölkənin. Bu, eləcə də milyonların ümidini puç etməkdə olan yoxsul Ermənistanı faş edir.

***İnam Hacıyev***

# Heydər Əliyev-100



# Ulu öndərin dövlətçilik fəlsəfəsi

Azərbaycan tarixinin Heydər Əliyev epoxası ilə bağlı gəldiyimiz qənaətin formalaşması yalnız onun Azərbaycana kifayət qədər uzun müddət rəhbərlik etməsindən daha çox bu rəhbərliyin zəngin məzmuna malik olmasına əsaslanır. Ən yüksək kürsülərdən belə tam qətiyyətlə və əminliklə demək olar ki, Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrlər ölkəmizin tarixinin xüsusi, yüksələn xətlə gedən inkişaf mərhələsini təşkil edir. Həmin dövrləri tam qətiyyətlə tariximizin həm surətli və hərtərəfli yüksəliş illəri, həm də intibahı adlandırmağımız daha dəqiq qiymətləndirmə meyarı olardı. Ümummilli liderin ölkəyə rəhbərlik etdiyi otuz ildən yuxarı vaxt kəsiyində Azərbaycan malik olduğu böyük intellektual və insani potensialı, mövcud təbii resursları, bir sözlə, mövcud milli gücü ölkənin qətiyyətli tərəqqisinin qüdrətli amilinə çevirmək imkanı əldə etmiş və bununla da öz tarixinin keyfiyyətcə yeni bir dövrünə qədəm qoymuşdur. Qədim və zəngin tariximizə müasir Azərbaycan cəmiyyətinin yaradılması mərhələsi kimi daxil olan bu dövr məhz Ulu öndərin adı ilə bağlıdır.

Ümummilli lider öz siyasi və dövlətçilik fəaliyyətində Vətənə, xalqa, torpağa bağlı olmuş, onlara sonsuz məhəbbət hissi ilə yanaşmış, qurub - yaratmaq arzusu ilə yaşamış, milli ideallara sıx bağlı olduğunu nümayiş etdirmişdir. Bu dahi İnsan bütün zəngin və mənalı həyatında həmişə xalqını, Vətənini düşünmüş, ölkəmizin ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmişdir. Böyük strateq hələ hakimiyyətinin birinci mərhələsində, imperiyanın güclü olduğu dövrdə xalqın milli təfəkkürünü repressiya xofundan, mövcud təzyiq və təhdidlərdən qorumuş, milli-mənəvi dəyərləri dağılmaqdan xilas etmiş, milli şüurun yüksəlişinə istiqamətlənən ardıcıl tədbirlər həyata keçirə bilmişdir.

Məhz Ulu öndərin rəhbərliyi illərində ölkəmiz nəhəng və sürətli inkişaf yolu keçərək fərqli bir durum yaratmağa, yeni cəmiyyət parametrləri qurmağa nail olmuşdur. Həmin illərdə ölkənin inkişafı başqa respublikalardan fərqli olaraq, sadəcə, prosesin adi axarının təzahürü formasında getməmişdir, bütün baş verənlər bir qayda olaraq, əhəmiyyətli keyfiyyət dəyişiklikləri ilə müşayiət olunan sıçrayış xarakterli yeniləşmə kimi özünü göstərmiş, hamıya nümunə olacaq səviyyədə olmuşdur. Ümummilli liderin hakimiyyətinin birinci dövründə cəmiyyətimizin həyatında baş verən sürətli tərəqqi sayəsində ölkənin mahiyyət etibarilə yeni keyfiyyət halının formalaşması, tariximizin isə yeni inkişaf mərhələsinə keçməsi hamı tərəfindən qəbul edilən reallıqdır. 1993-cü ildə Heydər Əliyevin qayıdışı ilə Azərbaycanın ikinci dəfə yeni keyfiyyət halını və deməli, yeni tarixi mərhələni yaşaması başqa siyasi reallıqlar çərçivəsində baş verən hadisə olmuş və bu birbaşa onun adı ilə əlaqədardır. Ölkənin müasir tarixində olan xidmətləri və həyata keçirdiyi nəhəng missiyası ilə Ulu öndər Azərbaycanın intibahının əsasını qoymuşdur-onun müəllifi olduğu nəhəng işlər sadəcə ənənəvi həyat irəliləyişinin ardıcıllığı sistemindən irəli gələn adi inkişaf olmamışdır, bütün bunlar keyfiyyət dəyişikliyinə gətirib çıxarmağa qadir olan sürətli bir yüksəliş olmuşdur. Tariximizin keçən əsrin 70-ci illərindən başlayaraq baş verənlər Ümummilli liderin tarixi missiyasının təntənəsi, müasir Azərbaycanın yaradılmasına hazırlıq və onun reallaşması demək idi-Müstəqil Azərbaycan bu dahi şəxsiyyətin müstəsna tarixi xidməti oldu. Hər bir xalqın tarixində onun müstəqil dövlətini yaratmaq kimi əzəmətli vəzifəni öz üzərinə götürmüş liderlər olmuşdur. XX əsrin əvvəllərində qazandığı dövlət müstəqilliyini uzun illər itirmiş Azərbaycanın məhz XX əsrin sonlarında öz istiqlalına qovuşmuş, milli dövlətçiliyini bərpa edərək müstəqil dövlətini yaratmaq missiyasını şərəflə yerinə yetirmişdir-tarixin hökmü ilə bu möhtəşəm missiyanı türk dünyasının nəhəng şəxsiyyəti olan Heydər Əliyev yerinə yetirmişdir. Hər birimiz müstəqil dövlət quruculuğu sahəsində qazanılan müstəsna uğurlara görə məhz xalqın böyük oğluna minnətdar olduğumuzu qürurla bildiririk.

Tarixin gedişinə təsir göstərən dahi şəxsiyyətlər, böyük siyasi liderlər öz mütərəqqi ideyaları ilə xalqı ətraflarında birləşdirməyə çalışmış, hər bir addımda ictimai inam qazanmağa cəhd etmiş, məhz bu siyasəti ilə böyük uğurlara imza atmışlar. Bütün işlərində daim ictimai mənafeni üstün tutan, xalqın dəstəyinə daha çox arxalanan siyasi lider istənilən siyasi mərhələdə xalqın sabit inkişaf yolunu düzgün müəyyənləşdirə bilmiş, milli maraqları qoruması ilə seçilmişdir. Siyasətdə ictimai inam qazanmaq məramı bu gün də öz aktuallığım itirmir-hakimiyyəti millətə layiqli xidmət vasitəsi hesab edən və bunu əməli fəaliyyəti ilə göstərən liderlər məhz milyonların iradəsi hesabına dövlətə rəhbərlik etimadı qazanırlar. Tarixin bütün mərhələlərində üzləşdiyi sınaqlarından şərəflə çıxan xalqımız XX əsrin son otuz illik taleyini hər zaman qəlbən inandığı, etimad göstərdiyi böyük siyasi liderlə bağlamışdır.

Azərbaycan xalqının öz qəlbində əsrlər boyu yaşatdığı müstəqillik ideyaları uzun və əhəmiyyətli təkamül yolu keçmiş, XX əsrin 70-ci illərindən başlayaraq bu arzuların həyata keçməsinə ciddi hazırlıq işləri görülmüş, əsrin son onilliyində ölkənin milli yüksəlişinin məfkurə əsası kimi reallaşmışdır. İmperiya ambisiyasının tüğyan etdiyi dövrdə Azərbaycana rəhbərlik edən Heydər Əliyevin milli ruhun inkişafına təkan verən cəsarətli addımları, ölkəni İttifaq miqyasında tanıtmaq yolundakı gördüyü böyük tədbirlər, bütün sahələrdə həyata keçirilən titanik işlər müstəqilliyə gedən yoldakı uğurlardandır. Ulu öndər özünə xas olan müdrikliklə dərk edirdi ki, siyasi müstəqillikdən məhrum olmuş xalqın milli ruhunu dirçəltməyin ən etibarlı yolu məhz iqtisadiyyatın inkişafı ilə bağlıdır. Güclü iqtisayyat xalqın özünə inamını artırmağın mühüm vasitəsidir, bu da öz növbəsində milli ruhu yüksəltmək, milli oyanışı gücləndirmək və millətin özünü ifadə etmək arzusunu daha dərindən alovlandırmaq qüdrətinə malikdir. Ümummilli liderin hakimiyyətinin birinci mərhələsində respublikanın sıçrayışlı iqtisadi yüksəlişinin xalqımızın müstəqillik məfkurəsinin möhkəmlənməsində əvəzsiz rol oynadığını qeyd etmək lazımdır. Xüsusi ilə vurğulamaq lazımdır ki, məhz bu illərdə respublikanın inkişafı universal səciyyə daşımış, hərtərəfli yüksəliş həyatın hər sahəsini əhstə etmişdir. İqtisadi inkişafla yanaşı, milli ruhu yüksəltməyə birbaşa təkan verən mədəni və mənəvi intibah meyilləri də aydınca müşahidə edilmişdir-bütün bunlar atılan addımların milli - məfkurə məna tutumuna malik olduğuna göstərmişdir. İqtisadi inkişafın formalaşdırdığı milli özünəinam hissləri mədəni-mənəvi yüksəlişin yaratdığı milli özünüdərk və özünüifadə istəkləri ilə tamamlanaraq əslində müstəqillik məfkurəsinin gündən-günə möhkəmlənən nüvəsini əmələ gətirirdi. 1977-ci ilin Konstitusiyasında SSRİ - nin əyalətlərindən biri olan respublikamızda Azərbaycan dilinin dövlət dili elan edilməsi yuxarıda irəli sürülən tezisi təsdiqləmək gücündə ola biləcək çoxsaylı dəlillərin ən bariz nümunəsi sayıla bilər. Ulu öndərin 80-ci illərdə nəhəng bir dövlətin ali rəhbərliyində təmsil olunması milli qürur və iftixar hissi yaradan amil olmuş, milli məfkurəvi rol oynamışdır.

Ümummilli liderin hakimiyyətinin birinci dövründə böyük məharətlə öz həllini tapmış məsələlərdən biri də Bakıya qarşı onilliklər ərzində aparılan məkrli niyyətlərə son qoyulması olmuşdur-Mərkəz ermənilərin fitvası ilə Bakıya qarşı nə İttifaqda, nə də dünyada analoqu olmayan tələ hazırlamışdır:Bakıda yaşayan əhalinin xeyli hissəsinin qeyri-azərbaycanlı olmasını əldə bəhanə tutaraq ”Bakı beynəlmiləl şəhərdir” kompaniyası aparır, Bakını Azərbaycandan ayırmaq, ”xüsusi statusla” birbaşa Mərkəzə tabe etməyə can atırdı. Bu məsələ dəfələrlə yüksək səviyyələrdə qaldırılmış və təkidlə onu həll etməyə çalışan qüvvələr 70-ci illərdən yenidən fəallaşmışdırlar.

Məhz Ulu öndərin uzaqgörən siyasəti nəticəsində xalqımıza qarşı yönələn bu düşmənçiliyin də qarşısı alınmışdır-sürətlə istifadəyə verilən fabrik və zavodların işçi qüvvəsinə olan ehtiyacı rayonlardan gələnlər hesabına təmin olunmağa başlandı, çox tezliklə 8-ci kilometr və Əhmədli qəsəbələri salındı-beləcə Bakının demoqrafik problemi həll olundu.

Ulu öndərin təşəbbüsü ilə 70-ci illərdə Xarkovda tikilməsi nəzərdə tutulan və bütün hazırlıq işləri görülən kondisioner zavodunun Moskvanın razılığı ilə Bakıya köçürülməsi o dövrdə digər respublika rəhbərləri arasında qısqanclıqla qarşılanmışdır-zavod vaxtından iki il əvvəl istifadəyə verildi, yeni iş yerləri açıldı, respublikamız Yaxın Şərq ölkələrində tanındı və Bakı kondisionerləri tezliklə təkcə Azərbaycanın deyil, həm də İttifaqın brendinə çevrildi.

Hər bir xalq üçün qürurverici hal onun liderinin ölkənin hüdudlarından kənarda tanınması və onun dahi şəxsiyyət olmasının etiraf olunmasıdır-bu məfkurəyə və milli düşüncəyə yüksək səviyyədə təsir göstərən amildir. Ümummilli liderin dünyanın iki super dövlətlərindən birinin rəhbərlərindən olması gerçəkliyini düşünmək özü belə hər kəsdə sevinc dolu həyacan yaşadır-onun hakimiyyətə gəlişinə qədər dünyada və hətta İttifaqda belə Azərbaycanı tanıyanlar çox az idi, qonşularımızdan fərqli olaraq bizə qarşı ögey münasibət hökm sürürdü-məhz 70-ci illərdən Azərbaycan sürətlə tanınmağa başlandı, hər il Ümumittifaq sosializm yarışlarının qalibi olan respublikamızda Mərkəzdən ayrılan vəsait hesabına böyük quruculuq işləri aparılmağa başlandı. Azərbaycan məhz onun sayəsində XX əsrin son onilliklərində öz intibahını yaşamış, bütün sahələr üzrə böyük uğurlara imza atılmışdır. Ulu öndərin milli lider kimi birmənalı olaraq bütün xalq tərəfindən qəbul edilməsi milli azadlıq məfkurəsinin yeni mərhələdə formalaşmasında həlledici rol oynamışdır.

Məhz bunun sayəsində XX əsrin 80-ci illərinin sonunda Azərbaycanda azadlıq hərəkatı SSRİ-nin digər respublikaları ilə müqayisədə daha böyük vüsət ala bilmişdir. Heydər Əliyev fenomeni geniş vüsət almış azadlıq hərəkatı ilə sıx bağlı olmuşdur, məhz onun adı və şəxsiyyəti azadlıq hərəkatını daha da gücləndirmiş və ona əlavə güc verən fenomen olmuşdur-bu fenomenə olan ehtiyac Azərbaycanın öz müstəqilliyini elan etdikdən sonra ilk aylarda daha aydın hiss olunmuşdur.

Müstəqilliyin ilk dövrlərində yaşanan siyasi qeyri-sabitlik, tez-tez təkrarlanan hakimiyyət dəyişiklikləri, iqtisadi tənəzzülün daha da dərinləşməsi, mövcud xaos və anarxiyanın idarəçilik sistemini bütünlüklə iflic etməsi, yaranmış daxili böhrandan faydalanan erməni təcavüzünün getdikcə genişlənməsi, daha çox Azərbaycan torpaqlarının işğal edilməsi, ölkənin dünyadan təcrid olunmasına aparılan siyasət, əslində respublikamızın tam təklənməsi Heydər Əliyev fenomeninə yenidən qayıdışı labüd etdi. Artıq hamı bu ideyanı qəbul edir və anlayırdı ki, vaxtında müstəqillik məfkurəsinin möhkəmlənməsində böyük rolu olan Heydər Əliyev əldə olunan müstəqilliyin müstəqil dövlətə çevrilməsinin yeganə təminatı ola bilər-məhz onun sayəsində müstəqillik ideyaları həqiqi gerçəkliyə çevrilə, qazanılmış dövlət müstəqilliyi geriyədönməz ola bilərdi.

Azərbaycanın müstəqilliyin bərpası ərəfəsində və suverenliyin bərpasının ilk illərində ciddi təhlükələr məngənəsində yaşaması, siyasi qeyri - sabitlik, iqtisadi tənəzzül, erməni təcavüzünün coğrafiyasının genişlənməsi, adamlarda yaranan bədbinlik hissləri, ictimai ovqatın dövlət qurucusu olan lider ideyası üzərində köklənməsi güclü şəxsiyyətə ehtiyac yaratmışdır. Hamı əmin idi ki, yalnız müdrik, təcrübəli və qüdrətli şəxsiyyət ölkəni əhatə etmiş total böhranı aradan qaldıra bilər-bir növ, güclü şəxsiyyət Azərbaycanın nicatı kimi qavranılırdı və bu mənada qüdrətli lider ideyası o dövrün siyasi gerçəkliyinin əsas aparıcı qüvvəsinə çevrilmişdir.

Azərbaycan tarixinin ən böhranlı mərhələlərindən olan XX əsrin 90-cı illərinin əvvəllərində ictimai düşüncə səviyyəsində güclü lider ideyasının məhz Heydər Əliyev şəxsiyyəti ilə əlaqələndirilməsi o dövrün gerçəkliyinin əsas ideyası olaraq qavranılırdı. Etiraf etmək lazımdır ki, güclü şəxsiyyət ideyası əslində ümidlərin Heydər Əliyevlə bağlanmasına ideoloji baza yaratmaq məqsədi güdür, bütünlüklə cəmiyyəti, onun hər bir təbəqəsini əhatə edən, həm də onu birləşdirən məfkurə rolunu oynayırdı. Heydər Əliyevin xilaskarlıq missiyası dedikdə elə genişmiqyaslı, sistemli və ardıcıl həyata keçirilən islahatları başa düşülür ki, bunların həyata keçirilməsi Azərbaycanın müstəqilliyini əbədi, sarsılmaz və dönməz edir, müstəqil Azərbaycan dövlətinin qurulduğunu bəyan etmək mümkün olurdu. Bu gün müstəqil dövləti quruculuğunun əsasını təşkil edən çoxsahəli və ardıcıl layihələrin uğurla həyata keçirilməsi həm də Heydər Əliyevin xilaskarlıq missiyasının gerçəkləşməsi kimi qəbul edilir. İlk illərdə nail olunan dayanıqlı siyasi sabitlik, iqtisadiyyatda gedən tənəzzülün cilovlanması, maliyyə nizam-intizamının yaradılması, aqrar islahatların uğurla həyata keçirilməsi, günün tələb etdiyi yeni iqtisadi sistemə keçidi təmin edən cəsarətli addımların atılması artıq müstəqil dövlətçiliyi möhkəmləndirən əsasların yaradılması idi. Ölkəmizə yönəlmiş müxtəlif təzyiq və təhlükələrin dəf edilərək birdəfəlik neytrallaşmasında bu dahi şəxsiyyətin dühasının məhsulu olan neft strategiyasının müstəsna rolu olmuşdur. Məhz neft strategiyası hesabına Azərbaycan uğurlu tarazlaşmış xarici siyasət yeritmək manevri qazandı, iqtisadiyyatını dirçəltdi, genişmiqyaslı sosial layihələri həyata keçirmək üçün güclü dəstək əldə edə bildi, ölkəmiz regionda lider dövlətə çevrildi, dünyanın ən dinamik iqtisadiyyatına malik olan ölkə adını şərəflə daşıdı, ölkənin beynəlxalq aləmdə rolu və əhəmiyyəti hissolunan dərəcədə artdı, həm də digər çoxsaylı uğurlarımıza imza atıldı. Neft strategiyasının icrası nəticəsində ölkəmizə milyardlarla dollar xarici sərmayə gətirildi-əgər "Əsrin müqaviləsi" imzalanmasaydı, ondan sonrakı dövr ərzində bütün infrastruktur layihələri həyata keçirilməsəydi, Bakı - Tbilisi - Ceyhan neft kəmərinin tikintisinə başlanmasaydı, bu gün Azərbaycanda iqtisadi inkişafdan söhbət gedə bilməzdi. Məhz "Əsrin müqaviləsi"ndən sonra bütün sahələrdə böyük inkişaf başladı, bir növ bütün iqtisadi inkişaf üçün möhkəm təkan yarandı, Azərbaycanın qarşısında duran sosial məsələlər daha da uğurla həll olunmağa başladı.

Bəşəriyyətin yaşadığı tarixi sübut edir ki, qazandıqları milli dövlətçiliyi itirmək və dünya xəritəsindən az qala tamamilə silinmək təhlükəsi ilə üzləşən xalqlar belə taleyüklü sınaq anında bütün məsuliyyəti öz üzərinə götürməyi bacaran qətiyyətli liderlərin müdrikliyi, fenomenal idarəçilik keyfiyyətləri hesabına öz mövcudluqlarını qorumuş, çətinlikləri dəf edə bilmişlər. Qeyri-adi rəhbərlik keyfiyyətlərinə malik olan bu şəxsiyyətlər yaranan sosial-iqtisadi, ictimai-siyasi və mənəvi-mədəni böhran dövründə xalqa düzgün yol göstərən, onu fəlakətlərdən qurtaran xilaskar missiyasında çıxış edərək ümummilli liderlik zirvəsinə yüksələ bilmişlər. Siyasi intuisiya və uzaqgörənlik, hadisələrin gedişinə təsir göstərmək və ya onu qabaqlamaq bacarığı böyük liderlər üçün səciyyəvi cəhətlərdən biri hesab oluna bilər-bu elə vacib keyfiyyətdir ki, yalnız bütöv bir xalqa deyil, həm də kiçik partiyaya, qrupa rəhbərlik edən şəxs də siyasi proseslərin gedişini fəhmlə duymalı, gözlənilən uğur və uğursuzluqları əvvəlcədən hesablamağı bacarmalıdır. Məhz iti fəhm və uzaqgörənliyin nəticəsində tarixən bir çox nüfuzlu liderlər siyasətdə qarşıya qoyduqları məqsədlərə yetişərək uğur qazanmış, təmsil etdikləri xalqı böyük fəlakət və faciələrdən qoruya bilmişdirlər.

Deyilənlərə rəğmən qətiyyətlə demək olar ki, məhz ümummilli lider Heydər Əliyev haqqı, ədaləti qorumuşdur. Zamanın nəbzini tutmağı, hadisələrə real qiymət verməyi, siyasi potensialını düzgün dəyərləndirməyi bacaran lider cəmiyyətdəki prosesləri düzgün istiqamətləndirməyə nail olur, milli inkişafın əsasına çevrilən cəlbedici proqram və konsepsiyaların müəllifinə çevrilir.

Ulu öndər özünün siyasi və dövlətçilik fəaliyyətinin bütün mərhələlərində, zəngin və mənalı həyatı yolunda hər an xalqı ilə olmuş, onu düşünmüş, Azərbaycanın ən çətin məqamlarında ölkəni üzləşdiyi faciələrdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmişdir. Vətənini və millətini ürəkdən sevən, bütün ömrünü onun tərəqqisinə həsr edən Heydər Əliyevin həyat fəlsəfəsi onun bu sözlərində çox gözəl ifadə edilmişdir: "İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezident kimi mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə vermiş və bütün uğurlarımı



belə uzaqgörən, siyasi proseslərin inkişaf gedişini əvvəlcədən duyan, çoxgedişli şahmat kombinasiyalar qurmağı bacaran, hadisələrin gedişinə pozitiv təsir göstərən böyük şəxsiyyət kimi xalqın qəlbində daim yaşayır, onun nurlu xatirəsi hər vaxt dərin ehtiramla yad edilir. Ümummilli liderin hələ sağlığında əfsanəvi, xarizmatik liderə çevrilməsində onun həyatı üçün heç bir riskdən çəkinməməsi, sözünü vaxtında və yerində deməyi bacarması, milli ideallar uğrunda mübarizədə sarsılmaz qətiyyət göstərməsi kimi xarakterik xüsusiyyətləri mühüm rol oynamışdır. Bu keyfiyyətləri hesabına Ulu öndər harada olmasından asılı olmayaraq hadisələrin fövqündə dayanmış, idarəçilik qabiliyyətini tam reallaşdıra bilən siyasi lider imicini qoruya bilmişdir. Liderlik onun xarakterindən, dünyagörüşündən, yaradıcılıq enerjisindən, qurub - yaratmaq həvəsindən irəli gəlmişdir. Böyük siyasətdə öz qarşısına qoyduğu məqsədlərə çatmasında uğur qazanması, rəhbərliyi dövründə xalqı dəhşətli fəlakət və böyük faciələrdən qoruması dahi strateqin iti fəhminin, müdrikliyinin və uzaqgörənliyinin nəticəsi olmuşdur. Böyük siyasi lider öz cəsarəti, çevik və rasional qərarları ilə, ən çətin vəziyyətlərdən düzgün çıxış yolu tapmaq məharəti ilə seçilən parlaq şəxsiyyətlərdə olmuşdur. Ulu öndər enerjisi, natiqlik məharəti, çevrəsində olan insanların tələbat və ehtiyaclarını ifadə etmək bacarığı ilə fərqlənmiş, cəmiyyətdə ayrı - seçkiliyə yol verməmiş, hər zaman təmin etmişdir".

Hələ Azərbaycana ilk rəhbərliyi dövründə böyük təzyiqlərlə, təqiblərlə üzləşməsinə baxmayaraq, Heydər Əliyev dühası heç bir çətinlikdən qorxmayaraq xalqda tarixi keçmişi, dili, mədəniyyəti, milli adət- ənənələri haqqında əsaslı təsəvvürlər formalaşdırmağa nail olmuşdur. Həmin vaxtlar İttifaq miqyaslı mətbu orqan olan "Ədəbiyyat qəzetində" böyük həcmli "Qoy ədalət zəfər çalsın" müsahibəsi aydın səmada çaxılan ildırım effekti vermişdir-siyasi lider həmin dövr və oturduğu siyasi kürsü üçün təhlükəli ola biləcək ruhda siyasi vəziyyəti təhlil etmiş, Mərkəzin yerlərdə milli azlıqlara qarşı siyasətindəki çatışmazlığı tənqid etmiş, ilk dəfə olaraq mövcud rüşvətxorluqdan, korrupsiyadan danışmış, görülən işləri təhlil edərək gələcəklə bağlı planları açıqlamışdır. Bu müsahibə Heydər Əliyev fenomeninin böyüklüyünün göstəricisi oldu. Ulu öndərin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəricilərindən biri də onun azərbaycançılıq ideyasına, milli özünüdərkin inkişafına, xalqın tarixi yaddaşının özünə qaytarılması prinsipləri əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsinə bağlılığı olmuşdur. Tarixi təcrübə ulu öndərin böyük uzaqgörənliklə söylədiyi "hüquqi cəhətdən müstəqil olmaqla real müstəqillik arasında çox böyük məsafə və olduqca ciddi manelər var"-fikrini təsdiq etmişdir.

**Ardı Səh. 9**

# Ulu öndərin dövlətçilik fəlsəfəsi



Əvvəli Səh. 9

Tam məsuliyyətlə demək olar ki, elan olunmuş dövlət müstəqilliyini qorumaq və möhkəmləndirmək, ona dönməz və əbədi xarakter vermək üçün olduqca böyük işlərin görülməsi tələb olunur. Müstəqilliyin siyasi - iqtisadi, mənəvi-psixoloji, hərbi-hüquqi, ictimai-siyasi təməli qoyulan ilk illərdə Azərbaycanda hakimiyyətdə olan səriştəsizlər mövcud imkanlardan düzgün yararlana bilmədilər-bir çox mütəxəssislərin apardığı təhlillər göstərirdi ki, İttifaqın dağılması ərəfəsində keçmiş SSRİ-də bir neçə respublika, o cümlədən Azərbaycan tam müstəqil olaraq öz iqtisadiyyatını idarə edə bilərdi. Hələ sovet dövründə, Ulu öndərin rəhbər olduğu dövrdə respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaranmışdır. Çox təəssüf ki, dövlət müstəqilliyinin ilk dövrlərində hakimiyyətdə olan şəxslər dünyanın çox sürətlə dəyişən siyasi mənzərəsini nəzərə almağı bacarmadılar və siyasi liderin sonralar qeyd etdiyi kimi, mövcud geosiyasi vəziyyət yeni strategiyanın formalaşmasını tələb edirdi.

Müstəqil Azərbaycan bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında Heydər Əliyev siyasətinə istinad edərək qətiyyətlə irəliləyir, gücünü və qüdrətini durmadan artırır, dahi şəxsiyyətə məxsus ideyaların həmişəyaşar olduğunu bir daha təsdiqləyir. Yeni mərhələdə Heydər Əliyev ideyaları özünün birmənalı təsdiqini tapdı, onun şəxsiyyətin böyüklük parametrləri içərisində həlledici əhəmiyyət kəsb edən cəhətlərdən biri kimi nəinki öz dövrünün ictimai - siyasi proseslərinə təsir etmək imkanı, habelə sonrakı proseslərə də təsir göstərmək qüdrəti özünü açıq göstərdi. Bu baxımdan Heydər Əliyevin şəxsiyyəti, onun əzəməti zaman məfhumu prizmasından yanaşıldıqda daha nəhəng görünür. Azərbaycan xalqının Heydər Əliyev irsinə sadiq olması, onun həyata keçirdiyi siyasətin alternativsizliyini birmənalı şəkildə qəbul etməsi dahi şəxsiyyətin ideyalarının əbədiyaşarlığının göstəricisidir. Bu gün həm daxili və xarici siyasətdə, həm də bütün digər sahələrdə əldə olunan nailiyyətlər, ölkəmizin son illərdə Ulu öndərin müəyyənləşdirdiyi yolla gedərək fövqəladə uğurlar qazanması onun şəxsiyyətinin nəhəngliyini əyani şəkildə təsdiq edir.

Bütün bunlar Heydər Əliyev irsinin, onun ideyalarının ölkəmizin müasir inkişafının ideya əsasları rolunu uğurla oynamasının meyarıdır. Heydər Əliyev strategiyası müasir inkişafın ideya əsası olmaqla yanaşı, həm də ölkəmizdə tarixən formalaşmış dəyərlər sisteminə söykəndiyindən böyük perspektiv üçün nəzərdə tutulmuşdur. Azərbaycanın davamlı inkişafının Heydər Əliyev konsepsiyası insanların davranışını stimullaşdırmaq qüdrətinə malik olan dəyərlərin tam dəstini özündə ifadə edir-bu dəyərlər sistemi ümummilli ideyanın təmin edilməsi və hər bir fərdin şəxsi idealının həyata keçirilməsini ehtiva edən prinsip və vəzifələri özündə göstərir. İnkaredilməz həqiqətdir ki, ictimai ideya fərdi qavranma və qəbuledilmə mexanizmi vasitəsilə ictimai və ya ümummilli davranış faktoruna çevrilir. Tarixi təcrübə fərdi maraqlar yükünü daşımaq imkanından məhrum edilmiş ideya sisteminin uğursuzluğa məhkum edildiyini dəfələrlə sübuta yetirmişdir. Bu baxımdan, Azərbaycanın davamlı inkişaf strategiyasının əsasını təşkil edən Heydər Əliyevin baxışları sisteminin gücü milli ideyanın kifayət qədər fərdi maraq ünsürləri ilə yüklənməsindədir. Heydər Əliyevin zəngin irsinə əsaslanan inkişaf strategiyasının təhlili onun üç fundamental başlanğıca-güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan-istinad etdiyini göstərir. Hər üç başlanğıcın qarşılıqlı ahəngdar fəaliyyəti ölkənin yüksək inkişafına, hərtərəfli tərəqqisinə xidmət edən əzəmətli vasitədir. Ölkənin və onun əhalisinin təhlükəsiz, əmin-amanlıq şəraitində və rifah halında yaşaması sosial - siyasi və milli-əxlaqi mühitin, birgə yaşayış norma və qaydalarının mövcüdluğunu özündə ehtiva edir, bu da özü - özlüyündə güclü dövlət anlamını verir.

Ümummilli lider hakimiyyətdə olduğu müddətdə Azərbaycan cəmiyyətinin vahidliyini, bütövlüyünün təmin olunmasını özünün strateji vəzifəsi saymış, cəmiyyətin vahidliyini təmin edərək, onun müxtəlif istiqamətlər-sosial bərabərsizlik, regional faktor, dini və milli mənsubiyyət amili baxımından parçalanmasına imkan verməmişdir. Bu yanaşma Azərbaycan dövlətçiliyinin yaşaması, inkişaf etməsi baxımından ən düzgün seçim idi və ötən illərin reallıqları da bunu təsdiqləmişdir. 90-cı illərdə SSRİ adlı imperiyanı sakitcə dağıdan qüvvələr eyni ssenari ilə Azərbaycanı da parçalamağa can atırdılar-cənubda Muğan-Talış hökümətini, şimalda Sadvalın hakimiyyətini, Qarabağda erməni dövlətini, qərbdə ruspərəst qüvvələrin qurumunu yaratmaqla ölkəni parçalamağa çalışırdılar-bütün bu bədnam niyyətin qarşısını məhz Heydər Əliyev qüdrəti ala bilmişdir.

Heydər Əliyev şəxsiyyəti bütün sistem və ölçülərin, ictimailəşmiş qəliblərin fövqündə dayansa da, bu ucalıq onun böyük dövlət xadimi, görkəmli ictimai-siyasi xadim və bunlardan da əvvəl - Böyük Azərbaycanlı olması faktını qətiyyən istisna etmir. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" - deyən böyük strateq azərbaycanlılara xas gözəl nə varsa, onların hamısını öz parlaq simasında bir araya gətirmişdir. Şəxsiyyətinin böyüklüyü və miqyası kimi daha iri ölkələrə rəhbərlik etmək imkanında olan Heydər Əliyev Azərbaycan adlı qədim diyarı az qala qarış - qarış gəzərək, rəhbər kimi onun hər bölgəsinə silinməz izlər salmış, sağlığında xalq üçün gördüyü nəhəng işlərlə özü - özünü əbədiləşdirmişdir.

Heydər Əliyev şəxsiyyətini, Heydər Əliyev fenomenini öz dəyərincə bütün incəliklərinə qədər qiymətləndirmək çox çətindir-belə ki, Ulu öndər kimi dahilər min ildə bir doğulur və xalqının taleyində, tarixində silinməz izlər qoyur, məmləkətin, ölkənin ən çətin, ağır dövründə böyük xilaskar rolunu oynayır. Bu dahi insanın ictimai-siyasi fəaliyyətinə, keçdiyi çətin ömür yoluna nəzər salanda aydın görünür ki, Heydər Əliyev bir çox siyasi xadimin edə bilmədiyini gerçəkləşdirmiş, müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə XX və XXI əsrlərin tanınmış siyasi xadimləri arasında həmişəlik öz layiqli yerini tutmuşdur. Xalqımızın yetirdiyi nadir dövlət xadimlərindən olan Heydər Əliyev yaşadığı bütün həyatı boyu hər zaman xalqını, vətənini düşünmüş, onun ürəyi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Ulu öndər bir dövlət başçısı kimi Azərbaycanın ən çətin, üzücü anlarında onu xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, ölkəsini bəlalardan qurtarmağı bacarmış böyük siyasi xadimdir.

Ümummilli liderin memarı olduğu və onun layiqli davamçısı Prezident İlham Əliyevin daha da kamilləşməsi üçün yorulmadan fəaliyyət göstərdiyi müstəqil, demokratik, hüquqi, dünyəvi Azərbaycan dövləti beynəlxalq aləmdə öz layiqli yerini tutmuşdur. Ölkədə sabitliyi, əmin-amanlığı, dövlət intizamını təmin etmək, qanunçuluğu və hüququn aliliyini gözləmək sahəsində atılan addımlar, zəngin irsin, hərtərəfli düşünülmüş strategiyanın həyatın gerçəkliyinə çevrilməsi heç şübhəsiz, lider faktoru ilə sıx bağlıdır. Məhz yeni dövrün yetişdirdiyi lider ideyanın bütün əzəmətini dərk etmək və onu yeni şəraitə maksimum uyğun olaraq gerçəyə çevrilmək qüdrətinə sahib olur. Heydər Əliyevdən sonrakı dövrün belə bir fenomenal liderinin İlham Əliyev olduğu artıq özünü qəti şəkildə təsdiqləyə bilmişdir. İlham Əliyevin müasir Azərbaycan siyasətində qüdrətli bir fenomen olaraq meydana çıxması mahiyyət etibarı ilə Heydər Əliyev siyasətinin məntiqi davamı və yeni keyfiyyət halında inkişaf etdirilməsidir.



Heydər Əliyevin müstəqil Azərbaycan quruculuğunda əks olunan strategiyası müasir şəraitdə Prezident İlham Əliyevin fəaliyyətində zəngin və qüdrətli Azərbaycanın yaradılması vəzifəsi kimi qarşıda dayanır. Zəngin və qüdrətli Azərbaycan ölkənin tarixinin nəinki yeni mərhələsi, bəlkə daha çox cəmiyyətin tamamilə fərqli keyfiyyət halı kimi qəbul olunur. Bu özünə daha çox inanan, potensialına daha çox güvənən, nəinki öz hüdudları daxilində, habelə regionda və beynəlxalq aləmdə özünü ifadə etməyi bacaran Azərbaycan deməkdir. Zəngin və qüdrətli Azərbaycan habelə özünü hər cür təhlükələrdən müdafiə etməyə qadir, torpaqlarımıza göz dikənlərə layiqli cavab verməyi bacaran Azərbaycandır. Ölkəmizin bu keyfiyyətləri artıq tarixi gerçəkliyə çevrilmişdir, Azərbaycanın gündən - günə artan iqtisadi qüdrəti siyasi və hərbi gücə transformasiya olmuş, ərazi bütövlüyü bərpa edilmiş, Azərbaycanın iqtisadiyyatı regionun ən güclü iqtisadiyyatına çevrilmişdir. Azərbaycanın büdcəsi region dövlətlərinin üst - üstə büdcələrindən artıqdır. Heç zaman militarizmə meyilli olmayan Azərbaycan indi özünün müstəsna olaraq təhlükəsizliyini və ərazi bütövlüyünü təmin etmək üçün regionda ən güclü orduya sahibdir. Beləliklə, Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan dövləti indi güclü Azərbaycan dövləti kimi tanıtma nişanına sahib ola bilmişdir. Vaxtilə hər birimizin qürur mənbəyi olan müstəqil Azərbaycan indi bütün azərbaycanlıların iftixarına çevrilmiş güclü Azərbaycandır.

***Yaşar Əhmədov***
***Fəlsəfə üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin***
***"Humanitar fənlər" kafedrasının dosenti***

ANALİTİK+AKTUAL

# İranın Ermənistan vasitəsi ilə Azərbaycana hücum planı nə qədər realdır?

*İstənilən təxribat cəhdinin qarşısı amansızlıqla alınacaq!*



Ötən gün bir sıra media səhifələrində belə bir iddia irəli sürüldü ki, İran Ermənistan vasitəsilə Azərbaycana qarşı hərbi təxribat həyata keçirməyi planlaşdırır. Xüsusilə, Tehrandakı səfirliyimizə qarşı baş verən məlum terror olayından sonra İranın bir sıra siyasi dairələri hələ də ölkəmizə qarşı siyasi həyasızlıq nümayiş etdirir, bu da azmış kimi təxribatçı bəyanatlar səsləndirirlər. Belə olan bir vəziyyətdə bütün zamanlar boyu Ermənistana nəfəs borusu olan İranın bu dəfə də Ermənistan vasitəsi ilə öz çirkin niyyətini icra etmək məqsədinin ortaya çıxdığı şübhə doğurmur. Belə ki, Azərbaycana qarşı revanşist hisslərini davamm etdirən Ermənistan da İranla eyni baxış bucağından çıxış etdiyinə görə, təxribatın üzərində ikitərəfli işlərin aparılması şübhə doğurmur. Əbəs deyil ki, yayılan məlumatlarda təxribat planının hazırlanması və həyata keçirilməsində İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) 30 hərbçisindən ibarət təxribat qrupunun iştirak edəcəyi barədə iddialar səsləndirilməkdədir. Sözügedən iddialarda məhz Ermənistanın Azərbaycana qarşı silahlı təxribat planı üzərində iş apardığı deyilir və burada iki məqsəd özünü açığa çıxarır:

*Birincisi, 44 günlük müharibədə, eləcə də sentyabr toqquşmasında ağır və sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistanın öz təbirincə "qisas əməliyyatı" nəzərdə tutulur.

*İkincisi, İran öz kirli niyyətini icra etmək üçün, əslində, öz planını Ermənistanın revanşist siyasəti üzərindən həyata keçirmək məqsədini güdür.

Bəs, həmin planın tərkib hissəsində daha hansı məqamlar dayanır? Mənbələr bildirirlər ki, hazırda SEPAH-ın, əsasən, farsmolla rejimi ilə işbirliyində olan və etnik azərbaycanlılardan ibarət xüsusi təlim keçmiş diversiya qrupu Ermənistan-Azərbaycan sərhədinin bilavasitə yaxınlığında, "Sünik" (Qərbi Zəngəzur) rayonunda yerləşir. Onlar Ermənistanın müdafiə nazirliyinin kəşfiyyat idarəsi və milli təhlükəsizlik xidməti ilə paralel hazırlıq işləri aparırlar.

### SEPAH generalları ermənilərə diversiya təlimləri keçirlər

Yeri gəlmişkən, qeyd edə bilərik ki, hazırda İranın özündə də kifayət qədər etnik ermənilər yaşayır və təxribat planında onların da iştirakları istisna edilə bilməz. Lakin hər şeyə rəğmən, oda məlumdur ki, əməliyyat qrupunun rəhbəri adı, artıq Azərbaycanın müvafiq strukturlarına məlumdur. Onun SEPAH-ın generallarından biri olduğu bildirilir. Hətta onun xidməti siyahısı haqqında da kifayət qədər məlumatlar var. Misal üçün, bildirlir ki, həmin general uzun müddət Suriyada xidmət edib, orada yerli hərbi əməliyyatların, təxribat və terror planlarının hazırlanmasına və həyata keçirilməsinə rəhbərlik edib.

### Fars-molla rejiminə nökərçilik edən "Hüseyniyyun" da təxribat planında yer ala bilər

Onu da istisna etmək olmaz ki, bu gün Tehran rejiminin əlaltıları şəklində fəaliyyət göstərən və Azərbaycanda axtarışda olan şəxslərin də həmin təxribat planında adları yer ala bilər. Çünki "Hüseyniyyun" adlı terror qruplaşmasının İranın xüsusi xidmət orqanları tərəfindən yaradılaraq digər terror təşkilatı - "İŞİD"lə silahı münaqişələrdəki iştirakları sübuta yetirilib. Onların hazırlanmasında SEPAH generallarının yer alması isə təkbizolunmaz faktlara əsaslanır.Məlumatda o da bildirilir ki, Azərbaycan tərəfində bölmə komandirləri və hətta İİKK-nın diversiya qrupunun bəzi döyüşçüləri haqqında dəqiq məlumatlar var. O cümlədən, planın tərkib hissəsi də artıq ifşa olunub.Belə ki, sözügedən təxribat qrupu Azərbaycanın Laçın və Qubadlı rayonları istiqamətində ardıcıl iki hücum təşkil etməyi planlaşdırır. Azərbaycan ordusunun postlarından birinə ilk hücumu "düşmənin canlı qüvvəsini məhv etmək" vəzifəsi daşıyan Ermənistan silahlı qüvvələrinin formasında olan bir qrup hərbçi həyata keçirəcək.Azərbaycan ordusunun əsgərləri şəklində olan ikinci qrup isə erməni postlarından birinə hücum edərək orada yerləşən bütün əsgərləri məhv edəcək.

Eyni zamanda, erməni əsgərlərinin öldürülməsi səhnələri, eləcə də Azərbaycan dilində danışıq videosu çəkiləcək. Sonra isə həmin videolar sosial şəbəkələrdə paylaşılacaq, Azərbaycana qarşı yeni və irimiqyaslı anti-kampaniyaya start veriləcək."Bu təxribatlara cavab olaraq Ermənistanın Sünik rayonu ərazisinə İİKK-nın əlavə bölmələri cəlb oluna və Azərbaycan ordusunun post və mövqelərinə hücumlar həyata keçirilə bilər. Bunda İranın Şahid kamikadze pilotsuz təyyarələrindən istifadə edilməsi mümkündür", deyə mənbələr qeyd edirlər.Beləliklə, planlaşdırılan xain və ucuz təxribatın əsas məqsədi Azərbaycanın növbəti "təcavüz aktı" və Azərbaycan ordusunun "vəhşilikləri" ilə bağlı Aİ missiyası üçün sübutlar toplamaq, habelə beynəlxalq aləmdə Bakıya qarşı növbəti təbliğat kampaniyası təşkil etməkdir. Bundan əlavə, sərhəddə planlaşdırılan təxribat İran silahlı qüvvələrinin Ermənistan ərazisinə daxil olması üçün hüquqi baza yaratmalıdır.Bununla bağlı 2022-ci ilin sentyabrında Azərbaycanı İran-Ermənistan sərhədinə nəzarəti ələ keçirmək niyyətində ittiham edən Ermənistan xarici işlər nazirinin müavininin bəyanatını xatırlatmaq yerinə düşər ki, bu da İranın sərhəddə hərbi təlimlər keçirməsinə səbəb olub.

### Türkiyədəki zəlzələdən istifadə etmək planı - qarşılıqlı zərbə ağır olacaq!

Sözügedən məlumatda daha bir diqqətçəkən məqam xatırlanır. Bu məqam vaxtın seçilməsi və Türkiyədə baş vermiş dağıdıcı zəlzələdən istifadə edlməsi ilə bağlıdır: "Ötən ilin ortalarında 30 iranlının Laçın yolu ilə Qarabağa gəldiyi və indi də orada olması faktlarla da sübut olunur. Sonrakı araşdırma onların da SEPAH ilə əlaqəli olduğunu təsdiqlədi. Qeyd etmək lazımdır ki, Azərbaycana qarşı silahlı təxribat törətmək üçün vaxt təsadüfi seçilməyib. Görünən odur ki, Ermənistan və İran ötən gün baş verən dəhşətli zəlzələdən sağ çıxan və daxili problemlərin həlli ilə məşğul olan Türkiyənin vəziyyətə lazımi şəkildə müdaxilə edə bilməyəcəyinə inanırlar. Ona görə də Azərbaycana qarşı çoxdan planlaşdırılan hərbi əməliyyatlar keçirmək üçün əlverişli şansdan istifadə etməyə çalışırlar".

Lakin hər nə qədər cəhdlər olsa belə, hətta təxribat planının icrasına çalışsa belə, bütün bunların həm İran, həm də Ermənistan üçün acınacaqlı nəticə verəcəyini indidən proqnozlaşdırmaq olar. Bu gün regionumuzda kifayət qədər qlobal dəyişikliklər cərəyan edir. Azərbaycan həm Cənubi Qafqazda, həm də dünyada özü sözünü deyən, qətiyyətini ifadə edən mühüm dövlətlər sırasında ali mövqeyini tutmaqdadır.

### Elə isə, İran və Ermənistan bacıları əgər cürətləri varsa, öz kirli niyyətlərini icra etməyə, sadəcə, cəhd göstərsinlər

Bununla yanaşı, dəfələrlə sarsıdıcı zəlzələlərdən başıuca çıxan güclü Türkiyə dövləti də əsla yaşanan sonuncu fəlakətdən sınmayıb, əyilməyib. Əksinə, bu güclər bir-birini tənzimləyir - Azərbaycan-Türkiyə qardaşlığını, müttəfiqliyini daha da sıxlaşdırır. Hər necə cəhdlər olsa belə, onlara qarşı amansız zərbələrin endirilməsi isə həm Bakı, həm də Ankara üçün an məsələsidir. Elə isə, İran və Ermənistan bacıları əgər cürətləri varsa, öz kirli niyyətlərini icra etməyə, sadəcə, cəhd göstərsinlər və bu cəhdlərinin necə yerlə-yeksan olacağını öz gözləri ilə müşahidə etsinlər..!

**Rövşən RƏSULOV**



## Dəli yığınağı

**Vəli Vəliyev**

İrandan bir xəbər gəldi, həm də nə gəldi. Guya Azərbaycanın Tehrandakı səfirliyinə hücum edən Yasinin başı xarab imiş, yəni ağıldan kəm, özünü idarə edə bilməyən, psixoloji durumu yerində olmayan. Bəs hadisədən sonra bu dəlinin, başdan xarabın İranın rəsmi televiziyalarına verdiyi müsahibədən niyə Tehran rejimi gen-bol istifadə edirdi, onun dediklərini əsas gətirərək Bakını terrorun törədilməsinə bəhanə yaratmaqda ittiham edirdi. Hətta Azərbaycandakı İran təəssübkeşləri də Tehranın maliyyəsi ilə fəaliyyət göstərən media üzərindən ölkəmizə basqı edərək günahkarları gizlətməyə çalışırdılar. Amma nə olursa olsun, hansı tərəfdən baxılırsa baxılsın, baş verənlər, xarici ölkənin səfirliyinə edilən silahlı basqın, cinayət əməlinin adı terrordur. Kimsə nəyisə bəhanə etməsin. İranın borcu idi ki, səfirliyin təhlükəsizliyini təmin etsin. Tehran isə bunu edə bilmədi, yaxud bilərəkdən etmədi.

Başqa bir yanaşma, əgər Yasin adlı bu terrorçu dəli idisə niyə İranın xarici işlər, yaxud daxili işlər nazirliyinə hücum etmədi. Yaxud niyə Xamneyinin iqamətgahına, Rəisinin rezidensiyasına, SEPAH-ın qərargahına qarşı silahlı hücum təşkil etmədi? Suallar çoxdur, həm də İran hər gün etdiyi hərəkətlərlə bu sualların sayını artırır.

Əvvəllər birisini məsuliyyətdən azad və müdafiə etmək üçün ona "dəlilik" damğası vururdular. Bunu da bəzi üzdəniraq "həkimlər"in və "hakimlərin" əli ilə reallaşdırırdılar. Məqsəd də müttəhimin cinayəti törətdiyi vaxt anlaqsız olduğuna hər kəsi inandırmaq idi. Belə "dəlilik kağızı" ilə neçə-neçə ağıllı məsuliyyətdən yayınmışdı.

Daha bir məntiqi sual yaranır, hər kəs üçün potensial təhlükə mənbəyi olan bu "dəlilər" niyə nəzarətsiz qalır? Niyə onların ağıldan kəm - dəli olması cinayəti törədəndən sonra yada düşür? Əlbəttə, bütün bunlar bir bəhanədir. İran xüsusi xidmət orqanlarının əməkdaşı olan "dəli" Yasinin dərdi arvadını səfirlikdə axtarmaq deyildi, o, Tehranın tapşırığını yerinə yetirirdi. Əgər belə olmasaydı, bir dövlət görəvlisinə daş atan etirazçını dar ağacından asan molla rejimi Yasini şaqqaladardı ki, iki qonşu arasında münasibətlərin pozulmasına bais olmuşdu.

Bu fikirlərdən sonra qəti olaraq Yasinin deyil, İranın, fars-molla rejiminin dəli olduğunu söyləyə bilərik. İranda dəli olanlar indiyədək mollanın yanına qaçardı, indi bu binəva rejimin mollaları dəli olanda kimin yanına qaçsınlar? Mollabaşı Xamneyinin əfv fərmanı da gözdən qaçmamalıdır. Yəqin ki, Yasini də o siyahıya salacaqlar və bununla da cinayətkar müttəhimlər kürsüsünə çatmamaış azad ediləcək. Bəli, burası İrandır, buralarda hökmranlıq edən isə fars-molla rejimidir

Azərbaycan bəstəkarlıq məktəbinin tanınmış sənətkarından söz açarkən qeyri-ixtiyari olaraq uşaqlıq illərimizdən daxili dünyamızda iz salan Tofiq Quliyevin musiqisini xatırlayırıq. Sadə, melodik, lirik bir musiqi ruhi dünyamıza hakim kəsilib. İllərdir ki, onun musiqisinin həzinliyi bizləri Tofiq Quliyev sənətinə yaxınlaşdırıb. Bu, onun yüksək bəstəkarlıq manevrinə, istedada malik olmasını özündə əks etdirir. Bu musiqidə həyat lövhələri təcəssüm olunur. Bir-birindən fərqli məzmunda olan musiqi nömrələri Tofiq Quliyevin sənətkarlıq xüsusiyyətlərini özündə təcəssüm etdirir. Onun sənət dünyası hər zaman diqqətdə olmuş və layiqli qiymətini almışdır. Bu diqqət və qayğının daha bir nümunəsinin təzahürü Bakının mərkəzində Tofiq Quliyevin abidəsinin ucaldılmasıdır. Şəhərimizin mərkəzində ucaldılan abidə Azərbaycan xalqının dahi bəstəkarı Tofiq Quliyevin xatirəsinə olan hörmətinin əlamətidir. ”Tofiq Quliyevin əsərləri Azərbaycan mədəniyyət aləmində bir inqilab etmişdir. Tofiq Quliyev həm görkəmli bəstəkar, həm Azərbaycanda caz sənətinin banisi də adlandırıla bilər. Eyni zamanda, böyük mədəniyyət xadimi Tofiq Quliyev Azərbaycan xalqının sevgisini qazanmışdır”. Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev fevralın 8-də Bakıda görkəmli bəstəkar, Xalq artisti, Dövlət mükafatı laureatı Tofiq Quliyevin abidəsinin açılışında çıxışı zamanı bildirib. ”Onun əsərləri doğrudan da bizim böyük sərvətimizdir. Bu əsərlər ölməz əsərlərdir, bu gün də səslənir, bundan sonra da uzun illər ərzində səslənəcək. Çünki bu əsərlərin mahiyyətində həm Tofiq Quliyevin istedadı, eyni zamanda, Azərbaycan xalqına, doğma Bakı şəhərinə olan məhəbbəti dayanır”, - deyə Cənab Prezident bildirib.1917-ci il 7 noyabr tarixində dünyaya gələn Tofiq Quliyev bəstəkar, pianoçu, dirijor, bir çox simfonik əsərlərin, kantataların, fortepiano əsərlərinin müəllifi olaraq, Azərbaycan caz və estrada musiqisinin banilərindən birinə çevrilib. Onun bir çox mənbələrdə öz əksini tapan tərcümeyi-halında Tofiq Quliyevin sənətə olan ilk addımlarında musiqiyə məhəbbəti diqqəti cəlb edir. O, 12 yaşında Azərbaycan Dövlət Konservatoriyası yanında peşə məktəbinə, 1934-cü ildə Konservatoriyaya daxil olub. Həm İ.S.Aysberqin sinfində fortepiano, həm də S.Q.Ştrasserin sinfində dirijorluq dərsi alıb və 1936-cı ildə konservatoriyanı bitirib. Gələcək bəstəkarın yaradıcılıq biçiminə onun ibtidai musiqi nəzəriyyəsi üzrə müəllimi, professional musiqi təhsili alan ilk Azərbaycan bəstəkarı Asəf Zeynallının böyük təsiri olmuşdur. 1931-ci ildə Asəf Zeynallının məsləhəti ilə M.Ə.Sabirin sözlərinə ”Məktəbli” mahnısını bəstələyib. 1935-ci ildə M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında dirijorluğa başlayıb. 1936-cı ildə bəstəkar Z.Baqnrovla birgə ”Rast”, ”Segah”, ”Zabul”, ”Dügəh” muğamlarını fortepianoda hazırlayıb. Üzeyir Hacıbəyovun təşəbbüsü ilə təhsilini davam etdirmək üçün Moskva Dövlət Konservatoriyasına göndərilib. Tezliklə orada A.Tfasmanın rəhbərlik etdiyi orkestrdə pianoçu işləməyə başlayıb. 1939-cu ildə Bakıya qayıdıb və 1941-ci ildə ”Qırmızı ordu” ansamblını yaradıb. 402-ci diviziyanın tərkibində çalışan ansambl üçün müxtəlif patriotik mahnılar yazıb. 1943-cü ildə iki yerə bölünən ansamblın ”Qırmızı flot” hissəsinin rəhbəri olub.1944-cü ildən məşhur caz ustası Eddi Rozerlə yaradıcılıq əməkdaşlığı edən Tofiq Quliyev, onun orkestri üçün ”Avara” hind kinofilminin, ”Qara gözlər” romansının və uşaq mahnılarının mövzuları əsasında caz kompozisiyalarını işləmişdir. Müharibədən sonra Azərbaycanın bir sıra teatrları ilə Azərbaycan Dövlət Dram Teatrı, Səməd Vurğun adına Rus Dram Teatrı, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı ilə əməkdaşlıq edib. XX əsrin 40-cı illərindən həm də kino sahəsində işləməyə başlayıb. 1948-ci ildə Moskva Dövlət Konservatoriyasında təhsilini davam etdirib. 1951-ci ildə aspiranturaya daxil olub və A.Qaukun rəhbərliyi altında elmi iş müdafiə edib. Həmin il ”Azərbaycan xalq rəqsləri” toplusunu hazırlayanlardan biri olub.

# Mahnılarda yaşayan sənətkar ömrü

## İlham Əliyev: "Tofiq Quliyevin əsərləri Azərbaycan mədəniyyət aləmində bir inqilab etmişdir"



### ”TOFİQ QULİYEV ÖZ XALQINA ÇOX BAĞLI İDİ, ONUN AZƏRBAYCAN, BAKI HAQQINDA ƏSƏRLƏRİ BUNU GÖSTƏRİR”

Çox keçmir ki, Tofiq Quliyev dirijor kimi çıxış edir. Bir sıra simfonik və kamera-instrumental əsərlər yaratsa da, onun parlaq uğurları teatr və kinematoqrafa aiddir. Lakin Tofiq Quliyevin yaradıcılığında ən aparıcı janr - mahnıdır. Onun mahnıları nəinki Azərbaycanda, hətta ölkənin xaricində də geniş şöhrət qazanmışdır. Bu dövr üçün bəstəkarın özəl yaradıcılıq dəst-xətti biçimlənir, yaratdığı yeni üslubda milli-folklor əsası Avropa professional musiqi məktəbinin və Amerika cazının ənənələri ilə üzvi şəkildə uyuşur. 1954-cü ildə Azərbaycan Dövlət Konservatoriyasında dərs deməyə başlayıb. 1956-1958-ci illərdə bir neçə mahnısı ”Azərbaycan mahnıları” musiqi cildinə salınıb. 1958-ci ildə Filarmoniyanın bədii rəhbəri, sonra direktoru olub və bir çox beynəlxalq konfrans, festival, incəsənət günlərində iştirak edib.Belə bir yaradıcılıq yoluna malik olan sənətkar musiqisevərlər tərəfindən sevilib. ”Tofiq Quliyev öz xalqına çox bağlı idi, onun Azərbaycan, Bakı haqqında əsərləri bunu göstərir. Eyni zamanda, onu tanıyanlar yaxşı bilirlər ki, çox gözəl insan, gözəl ziyalı idi, sözün əsl mənasında, böyük mədəniyyət xadimi idi və öz fəaliyyəti, öz əsərləri, Azərbaycanın ictimai həyatındakı rolu ilə tarixdə öz layiqli yerini tutmuşdur”, - deyən Cənab Prezident Tofiq Quliyevin xatirəsinin Azərbaycanda əbədiləşdirildiyini qeyd edib: ”Onun yaşadığı binaya xatirə lövhəsi vurulmuşdur, şəhərimizin küçələrindən birinə onun adı verilmişdir, eyni zamanda, musiqi məktəbi də onun adını daşıyır və bu gün bu gözəl abidə ucaldılır”.

Çoxşaxəli yaradıcılıq imkanlarına malik olan sənətkar XX əsrin 70-ci illərinin sonlarında bir çox uşaq və gənc musiqi müsabiqələrini, o cümlədən, ”Bakı payızı”nı yaradıb. 1969-cu ildən 1979-cu ilə qədər Azərbaycan Bəstəkarlar İttifaqına rəhbərlik edib. 1990-cı ildən ömrünün sonuna kimi Azərbaycan Bəstəkarlar İttifaqının idarə heyətinin sədri vəzifəsində çalışıb.

### ”BİZ HAMIMIZ DÜNYADAN GEDƏCƏYİK, ANCAQ TOFİQ QULİYEVİN MUSİQİSİ DAİM YAŞAYACAQDIR”

Dövlət başçısı çıxışında Ulu Öndər Heydər Əliyevi Tofiq Quliyevlə sıx dostluq əlaqələri bağladığını diqqətə çəkərək onların onilliklər ərzində bir-birinə böyük hörmət göstərən insanlar olduqlarını qeyd edib: ”Baxmayaraq ki, Heydər Əliyev Azərbaycanın ovaxtkı Kommunist Partiyasının rəhbəri idi, ondan sonra müstəqil Azərbaycanın Prezidenti idi, Tofiq Quliyev isə ömrü boyu siyasətdən uzaq bir insan idi. O, sadəcə olaraq, öz yaradıcılığı ilə Azərbaycana həm sovet dövründə, həm müstəqillik dövründə o qədər böyük töhfə vermişdi ki, hamımız, hətta onu tanımayanlar da onun obrazını özümüz üçün çox əziz və yaxın tuturduq. Atam isə onu yaxından tanıyan insan kimi bilirdi ki, Tofiq Quliyev nə qədər böyük insani keyfiyyətlərə malik idi. Onların dostluğu çox təbii idi, səmimi idi, təmənnasız idi, əsl dostluq idi. Tofiq Quliyevin 80 illik yubileyində Ulu Öndər Heydər Əliyev məşhur sözləri demişdir, yəqin ki, hamımız o sözləri xatırlayırıq - biz hamımız dünyadan gedəcəyik, ancaq Tofiq Quliyevin musiqisi daim yaşayacaqdır. Artıq o gündən 26 il keçib və nə qədər dəqiq, həqiqətə uyğun sözlərdir, indi biz bunu bir daha görürük. Heç birimizdə şübhə yoxdur ki, əsrlər keçdikcə bu unudulmaz musiqi, bu mahnılar, Azərbaycan xalqının musiqi istedadını əyani şəkildə göstərən əsərlər yaşayacaq, bizi və sonrakı nəsilləri sevindirəcək”.

Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə Tofiq Quliyevə ”İstiqlal” ordeni verilmişdir.Bir sıra simfonik və kamera-instrumental əsərlər yaratsa da, onun parlaq uğurları teatr və kinematoqrafa aiddir. Lakin Tofiq Quliyevin yaradıcılığında ən aparıcı janr - mahnıdır. Onun mahnıları nəinki Azərbaycanda, hətta ölkənin xaricində də geniş şöhrət qazanıb.Tofiq Quliyev musiqisindəki, üslubundakı bənzərlik bəstəkarın yaratdığı çoxsaylı melodik inkişaf xəttindən doğur. Həm də T.Quliyevin bir sənətkar kimi səciyyəvi cəhəti ondan ibarətdir ki, o, insan səsini, vokalçının səs imkanlarını gözəl duyan, bu imkanlara gözəl bələd olan bəstəkarlardandır.

### ”NİYAZİNİN QARŞISINDA DİRİJORLUQ ETMƏK GÜNAHDIR”

Qeyd edək ki, Tofiq Quliyev həm də gözəl bir pianoçu idi. Aysberq kimi professor Bakıda, Neyqauz kimi dahi professor Moskvada onun müəllimləri olmuşdular. Ensiklopedik yaddaşa malik olan bəstəkarın mahnıları ölməzdir, ona görə ki, onlar insanın daxilindən, qəlbindən, saflığından gəlir. Bütün yaradıcılıq yolunda gərgin fəaliyyətdə olan Tofiq Quliyev Azərbaycan estrada musiqisinin yaradıcılarındandır. 1941-45-ci illərdə müharibə dövründə ”Öldü var döndü yoxdur”, sonrakı dövrlərdə ”Neftçilər mahnısı”, ”Qızıl sünbül”, ”Azərbaycan”, lirik mahnılardan isə ”Sənə də qalmaz”, ”İlk bahar”, ”Sevgilim”, ”Sən mənim, mən sənin”, ”Axşam görüşlərinə”, ”Bəxtəvər oldum”, mahnılarının müəllifidir. Azərbaycan bəstəkarlıq məktəbinin ən parlaq şəxsiyyətlərindən biri Tofiq Quliyev hələ sağlığında mahnı janrının aparıcı örnəyi olmuşdur. Musiqi qabiliyyətinin tez üzə çıxmasına baxmayaraq, sistemli musiqi təliminə gec, 12 yaşında başlayır. Tofiq Quliyevin kino musiqisinin inkişafında da rolu vardır. 1941-ci ildə ilk dəfə ”Səbuhi” filminə musiqi bəstələmiş Tofiq Quliyev, bütün yaradıcılığı boyu bu janra müraciət etmiş və 40-dan artıq kinofilmin musiqisinin müəllifi olmuşdur. O, ”Sevimli mahnı”, ”Görüş” , ”Qızmar günəş altında”, ”Ögey ana”, ”Telefonçu qız”, ”Belə ada da vardır”, ”Nəsimi” və s. filmlərə musiqi bəstələmişdir. T.Quliyevdə aşağı səviyyəli musiqiyə rast gəlmirik. O, həm pianoçu, həm dirijor, həm də çox yüksək səviyyəli, böyük istedada malik, öz janrında dahi bir bəstəkar olmuşdur. Ondan soruşanda, niyə o, dirijorluq etmir, deyərmiş ki, mən dirijorluq edərdim, özü də yaxşı məktəb keçmişəm, amma Niyazinin qarşısında dirijorluq etmək günahdır. İnsana münasibətindən asılı olmayaraq, istedadlı adamlara həmişə baş əyərək, onları sevir, yüksək tuturdu. Məhz elə bu səbəbdən, Niyazi, Qara Qarayev, Fikrət Əmirov kimi böyük sənətkarlar Tofiq Quliyevin yaxın dostları idi.Tofiq Quliyev ”Aktrisa”(1943), ”Qızıl axtaranlar”(1963), ”Sənin bircə sözün”(1967), ”Tahirin süqutu” (1972), ”Sabahın xeyir, Ella” (1973) operettalarının müəllifidir.

1946-47-ci illərdə Rəşid Behbudovla birlikdə həm pianoçu, həm də təkrarsız mahnıların müəllifi kimi çıxış edən bəstəkar Sovet Birliyinin bir çox şəhərlərində milyonlarla dinləyicinin rəqbətini qazanmışdır. 1966-cı ildə bəstəkar Çexoslovakiyada keçirilən Azərbaycan incəsənəti günlərinin iştirakçısı olub. Bu səfərdən yazılmış ”Praqa haqqında mahnı”, ”Bratislava haqqında mahnı” Çexoslovakiyada nəşr olunmuş və geniş populyarlıq qazanmışdır.

1976-cı ildə Brüsseldə, 1977-ci ildə Vyanada, Varşavada keçirilən tədbirlərdə Azərbaycan incəsənət ustalarının nümayəndə heyətinin rəhbəri Tofiq Quliyev olmuşdur.

Dövlət tərəfindən fəaliyyəti hər zaman yüksək qiymətləndirilib. Belə ki, müxtəlif illərdə Azərbaycanın xalq artisti, əməkdar incəsənət xadimi, Dövlət Mükafatı Laureatı fəxri adlarına, eləcə də, SSRİ Qırmızı Əmək Bayrağı Ordeni, SSRİ ”Şərəf nişanı” ordeni ilə təltif olunmuşdur.Yaradıcılıqla ciddi məşğul olmaqla yanaşı, T.Quliyev, həmçinin, geniş ictimai fəaliyyəti ilə də seçilir. O, bir çox xarici ölkələrlə mədəni əlaqələrin yaradılmasında fəal iştirak edir.1968-ci ildə Tofiq Quliyev Azərbaycan Bəstəkarlar İttifaqının katibi, 1973-cü ildə birinci katibi seçilmişdir. 1974-cü ildə Həsən Seyidbəylinin ssenarisi əsasında çəkilmiş ”Nəsimi” filmi Ümumittifaq Kinofestivalında mükafatlandırılır, filmin bəstəkarı Tofiq Quliyev Dövlət mükafatına layiq görülür.Tofiq Quliyev dövrü mətbuatda musiqi sənəti ilə bağlı dərc olunmuş böyük sayda məqalələrin müəllifidir. Bu məqalələr onun müdrik bir sənətkar kimi nəzəri baxışlarını, doğma incəsənitimizin sabahı haqqında düşüncələrini əks etdirir.

Azərbaycan bəstəkarının yaradıcılığı böyük bir çiçək çələnginə bənzədilir. Yaddaşlarda iz salan, hər zaman sevilə-sevilə dinlənilən, mənəvi ruhumuzu qidalandıran böyük bəstəkarın əsərləri heç zaman unudulmayacaq.

***Zümrüd BAYRAMOVA***

# Zəlzələ Türkiyə iqtisadiyyatına necə zərbə vurdu?



**Kahramanmaraşda 10 vilayətə təsir edən və minlərlə binanın dağılmasına səbəb olan şiddətli zəlzələnin Türkiyə iqtisadiyyatına milyardlarla TL-lik yenidənqurma xərcləri yaradacağı və bu il artımın 1-2 faiz azalmasına səbəb olacağı gözlənilir. Son məlumatlar dünən Türkiyədə zəlzələdən sonra elektrik istehlakında 11% azalma olduğunu göstərsə də, axtarış-xilasetmə işlərinin üzərinə böyük yük düşməsi və zərərin qiymətləndirilməsinə bu gün başlanması ümumi təsirin hesablanmasında çətinliklər yaradır. Kahramanmaraşda ötən gün baş verən 7,7 bal gücündə zəlzələdə həyatını itirənlərin sayı son təsbitlərə görə 7108-ə yüksəlib. Ötən gün səhər saatlarında baş verən zəlzələdə 10 vilayətdən ibarət geniş coğrafiyada xəstəxanalar və böyük ictimai binalar daxil olmaqla minlərlə bina dağılıb.**

Zəlzələdən zərər çəkmiş 10 əyalətdə ümumilikdə 13,42 milyon insan yaşayır. Kütləvi zəlzələ nəticəsində dağılmış xəstəxanaların, yolların və elektrik ötürücü xətlərin yenidən qurulması qısa, orta və uzunmüddətli sığınacaq ehtiyacları üçün milyardlarla dollar tələb edəcək. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, zəlzələ ilə əlaqədar təcili yardım üçün qurumlara, ilk növbədə, 100 milyard TL vəsait ayrılıb.

## İqtisadçılar zəlzələnin Türkiyəyə vurduğu iqtisadi zərəri hesablayıblar

Cəmi 3 iqtisadçı zəlzələnin ÜDM-ə təsirini 0,6 ilə 2 bal arasında itki kimi hesablayıb. İqtisadçılar istehsalın 50% pozulduğu və bu azalmanın 6-12 aya kompensasiya edildiyi bir ssenariyə əsaslanır. Qurum rəsmisi bildirib ki, builki artım zəlzələ ilə bağlı ilkin hesablamalardan 1-2 bal aşağı ola bilər.

İstehsal itkisinin nə qədər böyük olacağı və bu itkinin nə qədər davam edəcəyi bilinmədiyi üçün zərəri tam təxmin etmək mümkün deyil. Ancaq keçmiş zəlzələlərdən və elektrik istehlak məlumatlarından edilən hesablamalarda Türkiyədə bir həftə əvvələ görə yaşanan 10 % itki də iqtisadi böyüməyə əhəmiyyətli təsirlərin olacağını göstərir.

## Elektrik istehlakı azalıb

Zəlzələnin baş verdiyi gündən Türkiyənin milli elektrik istehlakı əvvəlki həftənin eyni gününə nisbətən 11% azalaraq 37.500 MVt/saat olub.

"Milyardlarla lirə ziyan dəyəcək" deyən yüksək rütbəli məmur Reuters agentliyinə bildirib: "İndi ictimai binalar, xəstəxanalar, yaşayış evləri, boru kəmərləri, müxtəlif obyektlər, fabriklər... Bütün bunları birlikdə nəzərə alsaq, sürətli yenidənqurma tələb olunacaq. Büdcədə nəzərdə tutulan sərmayələrin bir hissəsi bu bölgələrdə istifadə olunmalı olacaq... Ola bilsin ki, burada milli gəlir baxımından milyardlarla dollarlar yaransın. Dəqiq zərəri müəyyən etmək təbii ki, vaxt aparacaq. Amma bu il proqnozlaşdırılan artımdan ən azı 1%, bəlkə də 2% azalma olacağı gözlənilir".

TÜİK-in bu həftə açıqladığı 2022-ci il məlumatlarına görə, zəlzələ bölgəsindəki 10 əyalətdə 13,42 milyon insan yaşayır və bu, ümumi əhalinin 15,7%-ni təşkil edir. TÜİK-in 2021-ci il məlumatlarına görə, zəlzələdən zərər çəkmiş 10 əyalətdən ibarət bölgənin ÜDM-dəki payı 9,3% təşkil edir. Sektorlar üzrə zəlzələ zonasının kənd təsərrüfatında payı 14,3%, sənayedə payı isə 11,2% təşkil edir ki, bu da ÜDM-in payından yüksəkdir. Ümumi turistlərin təxminən 1%-i zəlzələdən zərər çəkmiş bölgəyə gəldiyi üçün bölgənin bu sektora təsiri azdır.

Xarici ticarət məlumatlarını təsir kimi nəzərə alsaq, zəlzələdən zərər çəkmiş bölgə Türkiyənin ümumi ixracının 8,5%-ni, idxalının isə 6,7%-ni reallaşdırır. Türkiyə ixracının 4,4%-ni Qaziantep, 1,6%-ni Hatay və 1,2%-ni Adana həyata keçirir. İqtisadçılar, il ərzində bölgədən ixracatda bir neçə milyard dollar itki gözlədiklərini, lakin oxşar təsirin idxalda da görüləcəyi üçün ümumi xarici ticarətə təsirinin zəif qalacağına diqqət çəkdilər. İqtisadçılar sektor təsirlərinin makro təsirlərdən başqa görülə biləcəyinə diqqət çəksələr də, xalis effekti anlamaq üçün daha çox vaxt lazımdır.

Mayın 14-də keçiriləcəyi açıqlanan seçki öncəsi hakimiyyətin üzləşdiyi bu problemin iqtisadiyyata, seçki prosesinə təsir edib-etməyəcəyi isə başqa bir sualdır. Minlərlə insanın hələ də dağıntılar altında qaldığı, sağ qalanların bir stəkan suya belə çata bilmədiyi zəlzələdən sarsılan 10 vilayət Türkiyənin sənaye və kənd təsərrüfatı istehsalının dinamikləri sırasındadır. Bölgədəki bir çox fabrik də dağıdılıb.

Kahramanmaraş, Qaziantep, Hatay, Adıyaman, Malatya, Osmaniye, Adana, Kilis, Şanlıurfa və Diyarbəkir 13,5 milyonluq Türkiyə əhalisinin yüzdə 16-sını təşkil edir. Bu ərazilər iqtisadi böyüklüyü baxımından Türkiyə iqtisadiyyatının onda bir hissəsidir. Sənayedən toxuculuğa, poladdan heyvandarlığa qədər bir çox fərqli sektorda istehsalın edildiyi bölgənin ixracatı 20 milyard dolların üzərindədir

Zəlzələnin episentri olan Kahramanmaraş Türkiyənin bir nömrəli iplik, parça və mətbəx əşyaları istehsalçısıdır. Şəhər ixrac edən əyalətlər arasında 17-ci yerdədir. Qaziantep xüsusilə Yaxın Şərq ölkələrinin tədarükçüsüdür. Son illərdə turizmə hücum edən Qaziantep həm də türk qastronomiya turizminin paytaxtıdır. İskəndərun və Mersin limanları bölgədən malların daşınması və idxalının mərkəzidir. Lakin ilk gündən limanlardakı yanğını söndürmək mümkün olmadığından daşıma başlaya bilməyib.

Bölgədə fəaliyyət göstərən iş adamları bütün Türkiyəni humanitar yardıma, dağıntıların çıxarılmasına və insanların xilas edilməsinə çağırır. Bölgədə neçə fabrikin dağıldığı məlum olmasa da, minlərlə işçi dağıntılar altındadır. Həmçinin bildirilir ki, regionda iqtisadiyyatın bərpası üçün uzun illər lazım olacaq. İstanbul Tekstil və Xammal İxracatçıları Birliyinin (İTHİB) sədri və Kahramanmaraşda yerləşən Kipaş Holdinqin sədr müavini Əhməd Öksüz, "Kahramanmaraşda vəziyyət çox pisdir. Bir çox fabriklər dağılıb, bir çox fabriklər zədələnib. Yaraların sağalması çox vaxt aparacaq" deyib.

Kahramanmaraş Ticarət Birjası (KTB) İdarə Heyətinin sədri Mustafa Narlı, "Fabrikim də çökdü. Amma burada prioritet insan həyatıdır. Tezliklə elektrik və yanacaq alın. Sağ qalan fabrik ərazilərindən paxlalı alıb, bişirib vətəndaşlara paylayırıq. Yaralar ən qısa zamanda sağalmalıdır" deyib. TOBB Kahramanmaraş Gənc Sahibkarlar Şurasının sədri Aykut Balcıoğlu da köməyə çağıraraq, "Maraşda dağıntılar altında çox adam var, hələ də insan və texnika çatışmır. Bunu paylaşın, Maraşın çox köməyə ehtiyacı var, burada vəziyyət çox ciddidir, kömək edin".

Kənd təsərrüfatının da Kahramanmaraş iqtisadiyyatında böyük payı var. Kənd təsərrüfatının ən mühüm nöqtəsi olan Elbistan 7,6 bal gücündə zəlzələdə demək olar ki, xəritədən silinib. Elbistan Kənd Təsərrüfatı Palatasının sədri Mehmet Ali Bulut rayondakı vəziyyətlə bağlı bunları deyib: "Maşınla bütün Elbistanı gəzdik. Elbistan çökdü. Əlimiz bağlıdır, kömək yoxdur. Bütün Elbistanda cəmi bir-iki dağıntıda xilasetmə işləri aparılır. İndi burada nə kənd adamının, nə də şəhər sakininin evi qalmayıb. Kimin sağ qaldığını bilmirik. Elektrik, yanacaq təcili lazımdır. Bura əkinçilik və heyvandarlığın mərkəzidir. İnsanlar yemək tapa bilməsə də, buradakı heyvanlar da ac-susuzdur". TOBB Heyvandarlıq Şurasının sədr müavini Yılmaz Arpaç, zərərin qiymətləndirilməsi işlərinin davam etdiyini və lazım gələrsə, bölgədəki heyvandarlıq istehsalçılarına yem dəstəyi veriləcəyini bildirdi. Arpaç, "Kırşehir və Polatlıdan olan əsgərlərimiz bölgəyə ət göndərir, dostlarımıza yardım etməyə çalışırıq" deyib.

## Bəs, zəlzələ Türkiyə iqtisadiyyatına nə qədər ziyan vurub, şəhərlər neçə ilə bərpa olunacaq?

SİA mövzu ilə bağlı araşdırma aparıb. İqtisadçı deputat Vüqar Bayramov: "Zəlzələ qardaş Türkiyənin iqtisadiyyatına ciddi ziyan vurub. Nəzərə alsaq ki, dünyasını dəyişənlərin sayında artımlar var. Eyni zamanda, kifayət qədər çoxsaylı binaların uçması, infrastrukturun tamamilə dağılması müşahidə edilir.

Zəlzələ nəticələri aradan qaldırıldıqdan sonra konkret olaraq dəymiş ziyanla bağlı dəqiq məlumat vermək olacaq. Təbii ki, Türkiyə tərəfindən bu barədə qiymətləndirmə aparılacaq. Amma ilkin monitorinqlər və müşahidələr göstərir ki, zəlzələnin iqtisadi ziyanları kifayət qədər böyükdür".

***Ayşən Vəli***



# Yol hərəkətinin təhlükəsizliyi:
## POLİS-SÜRÜCÜ-PİYADA qarşıdurmasında kim haqlıdır?

**Bakı Şəhər Dövlət Yol Polis İdarəsinin baş inspektoru, polis mayoru Araz Əsgərlinin SİA-ya verdiyi müsahibəsini təqdim edirik:**



*- Düzgün parklanmama nədən yaranır? Səbəb nədir?*

- Düzgün parklanmama sürücülərin yol nişanlarına normal şəkildə baxıb qiymətləndirməməsindən irəli gəlir. Harada parklanma mümkündürsə, bunun üçün yol nişanı var və ayrıca qeyd olunub. Məlumatverici lövhəsində qeyd olunur ki, həmin parklanma yola perpendikulyar, yoxsa paralel olmalıdır. Məsələn, paralel nəzərdə tutulub, lakin sürücülər ona düzgün şəkildə riayət etmir və avtomobili perpendikulyar saxlayır. Bu parkalanma qaydalarının pozulmasının 342-1 maddəsində nəzərdə tutulub və 10 manat məbləğində də cərimədir. Burada məqsəd parklanma qaydalarını düzgün şəkildə icra etməyi sürücüdən tələb edir. Hər bir sürücü də bu məsələdə diqqətli olmalıdır.

Bəzən belə porotokollar tərtib olunur və sürücülər mübahisələndirmək istəyir. Onlar deyirlər ki, "Parklanma olan yerdə saxlamışdıq. Bəs, nəyə görə bizə hər hansı bir cərimə protokolu tərtib olundu?". Məhz bu sualın cavabı məlumat lövhəsini düzgün şəkildə qiymətləndirməməkdən irəli gəlir.

*- Bəs, qanunsuz şəkildə pulsuz parkinqdən ödəniş alanlarla bağlı hansısa cəza nəzərdə tutulur?*

- Bununla bağlı uzun müddətdir ki, Daxili İşlər Nazirliyinin Bakı Şəhər Baş Polis İdarəsi ərazi aidiyyatı üzrə bu məsələlərə cəlb olunub və belə şəxslər aşkarlandıqda onlara İnzibati Xətalar Məcəlləsinin 454-cü maddəsinə uyğun olaraq 80 manat məbləğində cərimə yazılır, qanunsuz xidmətləri göstərmək tələbi pozulduğuna görə isə inzibati məsuliyyətə cəlb olunurlar. Belə şəxslərə Yol polisi olaraq mənim tövsiyəm odur ki, heç bir vətəndaşı aldatmaq və polis əməkdaşlarını görüb ərazidən uzaqlaşıb kimlərisə çətin vəziyyətində saxlamaq qətiyyən yolverilməzdir.

Sürücülərə tövsiyəm odur ki, onlar kimlərinsə ərazidəki hər hansı bir xidmətlərindən yox, yol nişanlarının tələblərinə ciddi şəkildə riayət etsinlər. Əgər parklanma üçün ərazidə icazə varsa və bunun üçün ödəniş nəzərdə tutulmayıbsa, heç kimə ödəniş etməyə ehtiyac yoxdur. Belə hallar olduğu təqdirdə, aidiyyatı üzrə DİN-ə məlumat verib vəziyyəti bildirə və ərazidə xidmət edən polis əməkdaşlarına müraciət edə bilərlər. Heç kimlə lazımsız mübahisələr aparmaq, danışıqların istiqamətini dəyişməyə ehtiyac yoxdur. Dövlətin aidiyyatı qurumları və qanuni tədbir görmə səlahiyyəti olan şəxslər var. Belə məsələlərdə polisə lazımi informasiyanı verməklə məsələnin qısa zaman ərzində həllinə nail olmaq mümkündür.

*- Bir sıra parklarda insanlar sanki skuterlə avtoşluq edirlər. Onlar üçün hansı cəza mexanizmi nəzərdə tutulub?*

- Əvvəla qeyd edim ki, İnzibati Xətalar Məcəlləsinin 338-ci maddəsində hərəkətin digər iştirakçıları üçün nəzərdə tutulmuş qaydalar var və bu qaydalara da hər kəs birmənalı şəkildə riayət etməlidir. Çünki "Yol hərəkəti haqqında" qanunvericilik bütün hərəkət iştirakçılarına bərabər hüquq və vəzifələr tanıyıb. Yəni, bu qanunvericilik tək sürücüləri nəzərdə tutmur. Burada skuterdən, yeni nəsil müəyyən avadanlıqlardan, velosiped və mopedlərdən istifadə edənlər var. Onların hər biri yol hərəkətinin bərabər iştirakçılarıdır. Əgər həmin ərazilərdə konkret olaraq skuterlərdən istifadə edib vətəndaşlara müəyyən parklarda və istirahət zonalarında çətinlik yaratmaq yolverilməzdir. Bunun da bir məsuliyyəti var.

Ümumiyyətlə, bu gün cəmiyyətimizdə mobil nəqliyyat vasitələrindən, qeyri-mexaniklərdən istifadə etməyi alqışlayırıq. Xüsusilə şəhər mühitində sıxlıq və tıxacların olduğu yerlərdə şəhər mobilliyinin təmin olunması baxımından belə vasitələrdən istifadə etmək bizim hər birimiz üçün əlverişlidir. Bunlar yaxın məsafələri qət etmək üçün də uğurlu vasitələrdir. Amma onları da düzgün şəkildə istifadə etmək lazımdır. Bu vasitələri əyləncə metodu ilə istifadə edənlər yanılırlar.

Dünyanın hər bir sivil şəhərində insanlar belə vasitələrdən yalnız təyinatı üzrə və nəqliyyat ehtiyaclarını ödəmək üzrə istifadə edirlər. Biz də istəyirik ki, bu məsələləri medianın köməyi ilə insanlara düzgün şəkildə çatdıraq. Velosipeddən və skuterlərdən istifadə edin. Amma bunu qanun çərçivəsində, heç kimin hüquqlarını pozmadan və ətrafdakı insanların narazılıqlarına səbəb olmayan formada edin.

*- Avtomobillərin arxa şüşələrinə müxtəlif məzmunlu şüar və foto vurmaq olarmı? Olmayacağı təqdirdə cəzası nədir?*

- Bu, düzgün deyil. Ona görə ki, əvvəla sürücünün diqqətini yayındırır. İkincisi, müəyyən sözlər və ifadələr, kiminsə öz maraqları çərçivəsində reklam xarakterli yazılar var ki, "Reklam haqqında" qanunvericiliyin tələblərinə görə bu, qayda pozuntusudur. Qanunvericiliyin tələbini pozmaq olmaz. Buna qanunla məsuliyyət nəzərdə tutulur.

Digər halda da etik çərçivələrə uyğun olmayan, insanları düzgün istiqamətdə olmayan fikirlərlə düşüncələrini yayındırmaq, nələrisə yersiz formada təbliğ etmək olmaz. Avtomobil "A" nöqtəsindən "B" nöqtəsinə getmək üçün nəzərdə tutulmuş bir vasitədir. İnzibati Xətallar Məcəlləsində xüsusilə reklamla bağlı normativ tələblər var ki, onlar qorunur və birbaşa şəkildə icrası tələb olunur. Digər formada lüzumsuz yazıları və etik olmayan hərəkətləri heç bir şəxsə tövsiyə etmirik. Bu ətrafdan da çox qeyri-etik görünür. Bununla bağlı polisə xeyli müraciət daxil olur ki, insanları narahat edir.

Bir məqamı da sürücülər unudurlar ki, hər hansı bir məsələnin həlli onu düzgün şəkildə dərk etməkdən başlayır. Elə ifadələr və yanaşma tərzi var ki, bu cəmiyyətdə hər zaman xoş qarşılanmır, hətta bəzən ictimai qınağa da səbəb olur. Heç kim də lüzumsuz olaraq özünə ictimai qınağı cəlb etməməlidir.

*- Sürücü mədəniyyəti, yaxud mədəni sürücü nədir?*

- Sürücü mədəniyyəti və bir sıra anlayışların önünə mədəniyyət sözünü qoymaqla fikir formalaşdırmaq olar. İnsanın özü mədənidirsə, o elə həm mədəni sürücü, həm mədəni vətəndaş, həm də hörmətlə təqdim edilən şəxsdir. Mədəniyyət çox geniş bir anlayışdır. Sürücünün mədəniyyətini formalaşdıran elementlər isə qaydalara düzgün şəkildə riayət etmək, intizamlı olmaq, özünün və ətrafdakı insanların təhlükəsizliyini düşünüb qanunvericiliyin onun üzərinə qoyduğu vəzifələri düzgün şəkildə icra etməkdən keçir.

Bütün Yol hərəkəti qaydaları düzgün şəkildə icra olunduqda sürücü, piyada və sərnişin mədəniyyəti də özünün həqiqi mənada obrazını yaradır. Bu mənada, cəmiyyətdə bütün növ məsələlərə mədəni yanaşmağın hər bir problemin açarı olduğunu hesab edirəm.

***Ayşən Vəli***

# Ohanyanın impiçmenti və həbsi:
## Ermənistanda çalxalanmalar

*Sabiq müdafiə nazirinə qarşı bir neçə cinayət işi açıldı*



***Serj Sarqsyan hakimiyyətinin müdafiə naziri, birinci Qarabağ müharibəsində torpaqlarımızın işğalında əsas rol oynayanlardan biri, eləcə də sonrakı dövrdə fransız istehkamçılarının hesabına guya "keçilməz Ohanyan xətti" qurduğunu iddia edən Seyran Ohanyanın Ermənistan parlamentindəki deputatlıq mandatı əlindən alındı. Səsvermə nəticəsində impiçmentə məruz qalan Ohanyana qarşı paralel olaraq bir neçə cinayət işi də açılıb. Beləliklə, onu uzunmüddətli həbs gözləyir və bu prosesin digər maraqlı tərəfləri də var...***

### Cinayət işlərinin sübuta yetiriləcəyi halda Ohanyanı uzunmüddətli dəmir barmaqlıqlar gözləyir

Sözügedən vəziyyət, eyni zamanda, ermənilərin "məğlubedilməzlik" haqqında miflərinin də get-gedə dağılması faktını daha çox açığa çıxarmış olur. Açılan cinayət işinə gələrkən: ona qarşı birdən-birə bir neçə vəsatət qaldırılıb - xüsusilə, külli miqdarda dövlət vəsaitinin mənimsənilməsi - burada iki epizod var, eləcə də xidməti vəzifələrini yerinə yetirməmək. Məhz bu cinayət işlərinin sübuta yetiriləcəyi halda Ohanyanı uzunmüddətli dəmir barmaqlıqlar gözləyir.

Maraqlıdır, bəs onun özü bu ittihamlara necə münasibət bildirib? Deputat mandatı əlindən alınar-alınmaz mətbuata çıxan Ohanyan deyib: "Bu işlər çoxdan başlayıb, lakin Qeqarqunik kazarmasında yanaraq ölən əsgərlərimizin səsini boğmaq, ictimaiyyətin diqqətini bundan yayındırmaq, ümumi qəzəb dalğasının qarşısını almaq üçün vəsatət indi verilib. Təmsil olunduğum fraksiyam tezliklə ordudakı real problemlərin müzakirəsində iştirak edəcək. İndiki müdafiə naziri gəlib konkret suallarımıza cavab versin. Anlatsınlar ki, nəyə görə kresloların qorunmasına, polis dövləti qurulmasına pul xərcləyirlər, amma əsgərlərə elementar şərait yaratmırlar ki, kazarmalarımız yanmasın? Mən qalib ordunun generalıyam. Ordunu məhv edənlər məni heç nədə qınaya bilməzlər".

### Siyasi şərhçi Tevis Arşakyan: "Ohanyanın özü və s. generallarının, eləcə də Ermənistan rəhbərliyinin ordunu soyaraq necə varlanmaları, milyonlarla pul yığmaları haqqında danılmaz faktlar kifayət qədərdir"

Lakin Ohanyanın həmin fikirlərinə elə ermənilərin özləri cavab veriblər. Misal üçün, Armenianreport saytının baş redaktoru, siyasi şərhçi Tevos Arşakyan deyib: - Ohanyan deyir ki, çox şeydə indiki rəhbərliyin günahı var. Bəs bütün bu proseslərin başlanğıcında onun özü də dayanmamışdımı? Sənədlərdə fəxrlə kazarma adlandırılan tövlələrdə erməni əsgərlərinin başlarına oyunların gətirilməsi Ohanyanın dövründə baş vermirdimi? Yadınızdadır, Seyran Muşeqoviç, sizin zabitlər əsgərlərin məişət şəraitlərini yaxşılaşdırmaq üçün onların valideynlərindən necə pul alırdılar? Bizdə faktlar var.

"Ohanyanın özü və s. generallarının, eləcə də Ermənistan rəhbərliyinin ordunu soyaraq necə varlanmaları, milyonlarla pul yığmaları haqqında danılmaz faktlar kifayət qədərdir", deyə erməni siyasi şərhçisi yazıb. Arşakyan daha sonra yazıb:

- O ki qaldı "polis dövlətinə", bəli, indiki Ermənistan dünya demokratiyası üçün nümunə deyil. Amma Ermənistan Köçəryan və Sarkisyanın dövründə əsl polis dövləti hesab edilməli idi. Hamımız xatırlayırıq ...

### Serj Sarqsyan 2016-cı ilin aprel müharibəsindən sonra, yəni Azərbaycan Ordusu ilə toqquşma zamanı yaşanan ağır məğlubiyyətə görə Ohanyanı vəzifəsindən azad edib

ANALİTİK

Ermənilərin bir-birlərini didmələri qalsın öz yerində. Lakin biz də bəzi xatırlatmaları edə bilərik. Məsələn, birayaqlı general iddia edir ki, o "qalib ordunun generalıdır". Amma Serj Sarqsyan 2016-cı ilin aprel müharibəsindən sonra, yəni Azərbaycan Ordusu ilə toqquşma zamanı yaşanan ağır məğlubiyyətə görə Ohanyanı vəzifəsindən azad edib. Yəni o, heç də "qalib ordunun generalı" statusuna malik deyil. 2016-cı ilin aprel döyüşləri Azərbaycan Ordusunun qələbəsi ilə yadda qaldı. Bu döyüşlər nəticəsində bir neçə rayonda strateji yüksəkliklər eyni vaxtda azad edildi və ən əsası - 2020-ci ilin 27 sentyabrında başlanan 44 günlük Zəfər yürüşünün başlanğıc nöqtəsi oldu. Nəticədə, erməni ordusunun yenilməzliyi haqqında uzun onilliklər ərzində şişirdilmiş miflər, məhz Ohanyanın dövründə ifşa olundu. İndi isə o, yalnız buna görə deyil, həm də erməni xalqının başına gətirilən bəlalara görə uzunmüddətli həbsə doğru sürünməkdədir...

***Rövşən RƏSULOV***

# Rusiyalı ekspert: “Ermənistan Qafqazda Qərbin planlarını həyata keçirməyə çalışır"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb*

Vitali Arkov: Azərbaycan avropalı psevdomüşahidəçilərin xüsusi xidmət orqanlarının agentləri olduğunu bilir və buna qarşı çıxır. Və burada Rusiya və Azərbaycan həmrəydir







Rusiyanın xarici işlər naziri Sergey Lavrov bu günlərdə Rusiya mətbuatına müsahibəsində KTMT-nin fəaliyyəti və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması problemlərinə toxunaraq, ”Ermənistan uzun illərdir Azərbaycanın 7 rayonunu işğal edib. ”Rusiya çoxsaylı variantlar təklif etdi. Hətta əvvəlki Ermənistan rəhbərliyi də onları çox müsbət qarşılamırdı, heç vaxt iddia etmədikləri əraziləri saxlamaq istəyirdi. Məsələləri siyasi yolla həll etməkdən ümidsiz qalan Azərbaycan ona məxsus olan torpaqları geri qaytarıb”, - Lavrov bildirib.

Bundan əlavə, Rusiya diplomatiyasının rəhbəri bir daha vurğuladı ki, ötən il Praqada Ermənistan, Azərbaycan və Avropa İttifaqı 1991-ci ilin dekabrında Alma-Ata bəyannaməsində göstərilən şərtlərlə sülh müqaviləsi bağlamağa hazır olduqlarına dair sənəd imzalayıblar. Bu sənəddə deyilir: yeni müstəqil dövlətlər arasındakı sərhədlər Sovet İttifaqının müttəfiq respublikalarının, o cümlədən Ermənistan və Azərbaycanın inzibati sərhədləri boyunca keçəcəkdir. Sonuncuya (Azərbaycana-red.) Dağlıq Qarabağ Muxtar Vilayəti də daxildir”,- Sergey Lavrov əvvəllər təsbit olunmuş tezisini təkrarlayıb.

Nazir xatırladıb ki, ötən ilin sentyabrında Azərbaycanla Ermənistan arasında eskalasiyadan sonra Ermənistan-Azərbaycan sərhədində KTMT missiyasının yerləşdirilməsi planı hazırlanıb. Lakin İrəvan, Lavrovun sözlərinə görə, missiyanı yerinə yetirməyə tələsmirdi. Nazir qeyd edib ki, təklif hələ də ”masa üzərindədir” və erməni tərəfi hazır olarsa, missiya ”bir-iki gün ərzində yerləşdirilə bilər”.

İkinci Qarabağ müharibəsi zamanı Rusiya prezidenti Vladimir Putinin ”Beynəlxalq hüquq nöqteyi-nəzərindən Qarabağ Azərbaycandır” tezisi, o cümlədən Lavrovun Ermənistanın məsul rəhbərliyinin öz vətəndaşlarına işğal altında saxlanan torpaqların geri qaytarılmalı olduqlarını başa salmalı olması barədə bəyanatı geniş diqqət çəkdi.

2022-ci ildə İrəvanın bəzən qeyri-müəyyən və təxribatçı siyasəti ucbatından Rusiya XİN-in bəyanatlarını ermənilər daha açıq şəkildə tənqid etməyə başladı. Rusiya hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Eyni zamanda, rusiyalı nazir ilk dəfə olaraq ”işğal olunub” ifadəsini açıq şəkildə işlədib. Və bildiyiniz kimi, diplomatiyada hər deyilən və ya əksinə, deyilməyən söz bir siqnaldır.

Rusiyalı politoloq, PolitRus informasiya-analitik portalının rəhbəri Vitali Arkov ”Moskva-Baku” portalına vəziyyəti şərh edib. Ekspertin şərhini oxucularımıza təqdim edirik.

- Lavrov, sadəcə olaraq, hər şeyi öz adı ilə çağırdı. İkinci Qarabağ müharibəsindən əvvəl Qarabağın statusu məsələsinin dialoq predmeti olması nədənsə daha geniş yayılmışdı. İndi hamı başa düşür, o cümlədən Ermənistanın özü də - Qarabağ de-yure Azərbaycandır. Ermənistan üçün bununla mübahisə etmək çətin olacaq, ona görə də vəziyyətin təkrarı üçün Qərbi özünə alət seçir.

Niyə məhz indi cənab Lavrov işğal faktını bəyan etdi, siz cənab Paşinyandan soruşmalısınız ki, Moskva niyə ritorikasını dəyişdi? Əvvəllər Köçəryan, Sarkisyan və hətta erkən Paşinyan dövründə Moskva KTMT və AİI-dəki müttəfiqi Ermənistanın ”hisslərini incitməmək” üçün daha yumşaq, pərdələnmiş dildən istifadə edirdi. Amma son aylar cənab Paşinyan özünü müttəfiq kimi yox, son dərəcə iyrənc aparır. Odur ki, özünüz nəticə çıxarın, cənablar.

Lavrovun sözləri İrəvana növbəti mesajdır ki, Moskva artıq Paşinyan və komandasına görə Ermənistan hakimiyyəti ilə münasibətləri başqa cür qəbul edir. Yeri gəlmişkən, bu yaxınlarda Amerikanın Ermənistandakı diplomatik missiyasına rəhbərlik edən Lin Treysinin Amerikanın Rusiyadakı səfiri vəzifəsinə təyin olunması təsadüfi deyil.

Paşinyan 2021-ci ildə parlament seçkilərində yalnız ona görə qalib gəlib ki, o, üçtərəfli bəyanat imzalayıb və onun hakimiyyətdə qalması sənədlərin icrası baxımından Moskva tərəfindən zəruri hesab edilib. Ancaq gördüyümüz kimi, o, heç nə etmir. Ermənistan tərəfi, açıq desək, problemi dinamikləşdirir.



Təbii ki, Ermənistanın baş nazirinin hərəkətlərinə və Cənubi Qafqazdakı situasiyaya qlobal vəziyyət, Rusiya ilə Qərb arasındakı münaqişə prizmasından baxmaq lazımdır. Nikol Paşinyan Qərbin maraqlarının dirijorudur.

İndi Qərb də Azərbaycanı müstəqil suveren siyasətinə görə cəzalandırmaq istəyir. Biz görürük ki, Qərb ardıcıl olaraq Azərbaycanı necə cəzalandırmağa çalışır. Belə görünür ki, Qərb Azərbaycanla neft-qaz tərəfdaşlığında səmimi şəkildə maraqlı olmalıdır. Və bununla maraqlanırlar. Amma eyni zamanda, şantaj yolu ilə Bakının ”qollarını burmağa” çalışırlar. Bu, Avropa üçün yaxşı heç nəyə gətirib çıxarmayacaq. Çünki o, özü də tamamilə gücsüzdür, Avropa İttifaqının suveren siyasətindən danışmağa ehtiyac yoxdur. Avropanın timsalında görürük ki, özlərinə aidiyyatı olmayan, mağara dövrünə qərq olmuş və indi bunun bəhrəsini alan ölkələrin başına nə gəlir.

Qərb regionda qaynar nöqtənin saxlanması və yenidən alovlanmasında maraqlıdır. Nəinki Moskvaya qarşı yönəlmiş siyasət var, biz Qərblə İran arasında qarşıdurmanın, Qərblə Türkiyə arasında gərginliyin artdığını görürük. Yaxın Şərqdə eskalasiyanı da. İrəvan ”kollektiv Qərb” naminə regionun ən azı 3 ölkəsinə təsir aləti kimi çıxış edir. Ermənistan bunu öz milli maraqlarının zərərinə razılaşaraq edir. Mən istərdim ki, Ermənistan vətəndaşları bunu görüb başa düşsünlər.

Moskva regionda sabitlikdə maraqlıdır. Ona görə də Azərbaycanla Ermənistanın sülh müqaviləsi imzalaması onun üçün vacibdir. Ola bilsin ki, bu, həm də Qərbin təsirini yumşaltmağın bir yolu olacaq. Moskva üçün ”Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizinin həyata keçirilməsi son dərəcə vacibdir. Rusiya bütün sərhədlərində sabitlikdə maraqlıdır. Ermənistanın indiki rəhbərliyi təəssüf ki, suveren deyil. Hakimiyyətdə olanlar ağalarının- Qərbin göstərişlərinə əməl edən insanlardır. Və əgər Üçüncü Qarabağ Müharibəsinin başlamasına işarə olsa, başlayacaqlar.

Azərbaycan artıq Ermənistanda avropalı psevdomüşahidəçilərin peyda olmasına qəti şəkildə qarşı çıxıb. Bakı bu cür ”personajlara” qəti şəkildə qarşı çıxır, çünki onların xüsusi xidmət orqanlarının agentləri olduğu aydındır. Bütün bunlar regionda sülhə xidmət etmir. Və burada Rusiya və Azərbaycan həmrəydir.

Xatırlayırıq ki, Gürcüstan hakimiyyəti etiraf edirdi ki, Qərb Tiflisi ikinci cəbhə açmağa təşviq edib. Və Ermənistan rəhbərliyi dəli olub Üçüncü Qarabağ müharibəsinə başlasa, bu, ikinci cəbhənin açılışı olacaq. Rusiya kənarda qala bilməz. Moskva dost ölkələr, tərəfdaşlar və müttəfiqlərlə əməkdaşlığı gücləndirməlidir. Ermənistanın və Qərbin Zaqafqaziyada təxribatları təəssüf ki, daha da artacaq. Azərbaycan səbirli olmalıdır. Və təxribatlara boyun əyməməlidir. Eyni zamanda, Ermənistanda gələcəkdə hakimiyyət dəyişikliyi də mümkündür.



***Tərcümə - ELçin Bayramlı***

# İbrahimoviç: "Tanrıya inanmayanlara hər şeyi meydanda sübut edəcəyəm"




"Milan"ın futbolçusu Zlatan İbrahimoviç yenidən maraqlı açıqlamaları ilə gündəmə gəlib. Qol.az xəbər verir ki, 41 yaşlı hücumçu "Sport Mediaset"ə müsahibəsində hələ də özünü futbolun tanrısı hesab etdiyini deyib: "Əlbəttə, heç nə dəyişməyib. Mən boş yerə meydana qayıtmaq istəmirəm. Meydançaya çıxsam, nəticə əldə etmək istəyəcəyəm. Mən çox yaxşıyam. Ümumi komandaya qayıtmışam və həm meydanda, həm də meydandan kənarda özümü sərbəst hiss edirəm. Bu o deməkdir ki, mən yaxşıyam. Bütün bu müddət ərzində məşqçiyə, heyətə, bütövlükdə kluba kömək etmək üçün əlimdən gələni etdim. Səbirli idim, çünki zirvəyə qayıtmalıydım və dönüş plana uyğun gedir. Yazacaq daha çox səhifələrim var. Ustalıq yaşla gedən bir şey deyil. Fiziki vəziyyət dəyişir, amma bacarıq heç yerə getmir. Mənim bacarıqlarım da yerindədir. Tanrıya inanmayanlara hər şeyi meydanda sübut edəcəyəm".

# DİQQƏT:

## Qripdən necə qorunmalıyıq

**"Mövsümlə əlaqədar qripin ən çox yayılma dövrü elə qış aylarına təsadüf edir. İsti, qapalı və kollektiv mühit yoluxuculuğu daha da kəskinləşdirir". Bu sözləri SİA-ya açıqlamasında mütəxəssis pediatr Yüksel Hüseynli deyib.**



Onun sözlərinə görə, təəssüf ki, noyabrdan bəri başlayan xəstələnmə halları artan tempdə davam edir: "Pasientlərdən davamlı olaraq eyni sözü eşidirik "Ailəlikcə xəstələndik, 7-10 gün sonra yenə eyni əlamətlərlə təkrarlandı": "İnfluenza, digər adı ilə qrip virusu ştamm əmələgətirmə qabiliyyəti yüksək olan virusdur. Digər viruslarla birgə, klinik gedişatın daha ağır olduğu xəstələnmə hallarına səbəb olurlar. Bu prosesi körpə uşaqlar, xroniki xəstəlikləri olanlar, immunyetməzlik və onkoloji xəstəlikləri olanlar daha ağır keçirirlər".



Yüksel Hüseynli sözlərinə belə davam edib: "Pnevmoniya, otit, sinusit, ağciyər emfizeması və digər kəskin ağırlaşmalar ilə müraciətlər artır.

İlk öncə mümkün qədər yaşadığımız ev, işlədiyimiz mühitdə otaq optimal temperatur və nəmişlik də olmalıdır: 20-25 dərəcə temperatur və 40-60 % nəmişlik. Quru, isti hava nəfəs yollarımızın selikli qişasını qurudub, nəfəs yollarımızı virus və bakteriyalar üçün əlverişli mühitə çevirir və daha tez-tez xəstələnirik.

Eyni zamanda qrip və digər viruslar əsasən hava-damcı yolu ilə yoluxduqları üçün yaxın məsafədə ünsiyyət, asqırma, öskürmə və xəstə insanla eyni qapalı, havasız otaqda olma tez xəstələnməyimizə səbəb olur. Özümüzdə və kiçik yaşlı uşaqlarda əl yuma vərdişini artırmalıyıq.

Xəstələndiyimiz halda evdə qalmalı, sağalanadək istirahət etməli, əgər xəstəlik əlamətlərini hiss ediriksə mütləq maska taxmalıyıq. Xəstə ana maska taxaraq, əllərini tez-tez yuyaraq uşağını əmizdirə bilər. Bu bilinənin əksinə körpədə həmin virusa qarşı immunitet yaranmasına səbəb olur.

Bol, isti mayelər qəbul etməli, körpələrin və özümüzün burnunu natrium xlor məhlulu ilə yumalıyıq. Uşaqların nəfəs yolları çox kiçik olduğu üçün xəstələndikdə, burun seliklə tutqun olduqda nəfəs alması çətinləşir, nəticədə əmmə, yemək yemədən imtinaya səbəb olur. Çünki kiçik uşaqlarda əsasən burun tənəffüsü olur. Ağızla nəfəs alma qabiliyyətləri zəifdir. Yenidoğulma dövründən etibarən körpələrin davamlı burun təmizliyini aparmalıyıq.

Xəstələnmə zamanı mütləq həkimə müraciət etməliyik. Çünki vaxtında müdaxilə edilmədikdə yuxarıda qeyd etdiyim ağırlaşma halları anidən baş verə bilər".

*Ayşən Vəli*

## Yasamalda 51 yaşlı cibgir tutulub

Bakının Yasamal rayonu ərazisində marşrut avtobusunda şəhər sakini olan bir qadının çantasından içərisində 570 manatı, sənəd və bank kartı olan cüzdanının oğurlanması barədə polisə məlumat daxil olub.

Bu barədə SİA-ya Daxili İşlər Nazirliyindən məlumat verilib. Bakı Şəhər Baş Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində ictimai nəqliyyatda cibgirlik yolu ilə oğurluq əməlləri törətməkdə şübhəli bilinən 1972-ci il təvəllüdlü əvvəllər dəfələrlə məhkum olunmuş Məhəmməd Əliyev müəyyən olunaraq saxlanılıb. Araşdırma aparılır.



Onun əməllərindən zərər çəkən başqa vətəndaşlar varsa, bu barədə polisə məlumat verməleri xahiş olunur. Faktla bağlı araşdırmalar davam etdirilir.

# 76 saat sonra dağıntılar altından iki nəfər xilas edilib



**Qaziantepdə baş verən zəlzələdən 76 saat sonra dağıntılar altından iki nəfər xilas edilib. SİA Türkiyə mətbuatına xəbər verir ki, axtarış-xilasetmə işləri davam edir. Mərkəz Batıkent məhəlləsində 14 mərtəbəli binanın dağıntıları arasından səs eşidildikdən sonra bölgədə işlər daha da intensivləşib.**

Uzun sürən axtarışlardan sonra hələlik adları öyrənilməyən iki nəfərə sağsalamat çatdırılıb. Dağıntılar altından çıxarılan yaralı ailəsi alqış və təbriklə qarşılanıb. Zəlzələdən 76 saat sonra yaralılar ilişib qaldıqları yerdən çıxarılaraq təcili yardım maşınları ilə xəstəxanaya göndərilib.

*Baş redaktor:*
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3600